

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 3 - mart 2018

*Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir*

*İlham ƏLİYEV,*

*Azərbaycan Respublikasının Prezidenti*



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 03 MART 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:



**RƏSMİ MƏLUMAT**

Azərbaycan-İran əlaqələri bütün sahələrdə uğurla inkişaf edir (İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycan Respublikasına rəsmi səfəri) ............................................5
VI Qlobal Bakı Forumu ...................................................................9




**31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR**

Azərbaycanlıların 1918-ci il soyqırımından 100 il ötür ..........................12
Azərbaycanlıların soyqırımının yüzüncü ildönümü ədliyyə orqanlarında yad edilib ..........................................................16
Məhərrəm Əliyev. 31 Mart soyqırımı dünya azərbaycanlılarının tarixi yaddaş günüdür ............................................17



**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Ədliyyə naziri Qubada vətəndaşları qəbul edib ..................................20
Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunub ...............................21
8 mart - Qadınlar günü ədliyyə orqanlarında qeyd olunub ....................22



**MƏQALƏ**

Faiq Qurbanov. Azərbaycan dövləti işgəncələrə və pis rəftara qarşı dözümsüzlük nümayiş etdirir..................................23







**TƏDBİRLƏR, SEMİNARLAR**

Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının iclası keçirilib .............27
Hakimlərin Seçki Komitəsinin məlumatı ...............................................28
Ədliyyə Akademiyasının məlumatları ..................................................29
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür ......................................................................30
Ədliyyə işçiləri internat evlərinin sakinlərini sevindiriblər ...................30

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100 İL**

Gülgün Şəfiyeva. Azərbaycan dövlətçilik tarixində Xalq Cümhuriyyətinin yeri .....................................31

**YENİ QANUNLAR, FƏRMANLAR...**

“Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 986-VQD nömrəli Qanunu ...........................35
“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1002-VQD nömrəli Qanunu .........................35
“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1025-VQD nömrəli Qanunu .............................36
“Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1027-VQD nömrəli Qanunu .............................37

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1028-VQD nömrəli Qanunu ..............................37

“Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1031-VQD nömrəli Qanunu ....................................................................38

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1038-VQD nömrəli Qanunu ....................................................................38

“Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli 1885 nömrəli Fərmanı ....................................39

## KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARLARI

“Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 158-ci maddələrinin bəzi müddəalarına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ..................41



# Azərbaycan-İran əlaqələri bütün sahələrdə uğurla inkişaf edir

*İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycan Respublikasına rəsmi səfəri*

**Martın 28-29-da İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ölkəmizdə rəsmi səfərdə olub.**



*Azərbaycan və İran prezidentlərinin təkbətək görüşü*

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin təkbətək görüşü keçirilib. Görüşdə regionun ortaq tarix və mədəniyyətə sahib iki böyük xalqın, Azərbaycan-İran dostluq və qardaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, bütün sahələr üzrə çox yaxşı əməkdaşlıq edildiyi, siyasi, iqtisadi, mədəni, enerji, nəqliyyat



*Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi*

sahələrində yaxşı nəticələr əldə olunduğu vurğulanıb, hazırkı səfərin iki ölkənin səmimiyyətə söykənən əlaqələrinin inkişafına yeni təkan verəcəyinə əminlik bildirilib.

Sonra görüş Azərbaycan və İran nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib, ölkələrimiz arasında əlaqələrin inkişaf perspektivləri ətrafında faydalı fikir mübadiləsi aparılıb, dövlət başçılarının iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi keçirilib.

Mərasimdə "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında Əməkdaşlıq haqqında İcra Proqramı", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 2018-2019-cu illər üzrə İcra Planı", "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2018-2021-ci illər üçün Mədəniyyət və İncəsənət üzrə Mübadilə Proqramı", "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna dair Fəaliyyət Proqramı", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İran İslam Respublikasının Neft Nazirliyi arasında Xəzər dənizində müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının Sənaye, Mədən və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş" imzalanıb.

Tədbir başa çatdıqdan sonra Azərbaycan və İran prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

İran-Azərbaycan dövlətlərarası münasibətlərin möhkəm tarix və mədəni köklər üzərində uğurla inkişaf etdiyini söyləyən dövlətimizin başçısı İlham Əliyev son dörd il ərzində prezidentlərin 11 dəfə görüşünün keçirildiyini və bu müddət ərzində imzalanmış bir çox önəmli sənədlərin əlaqələrimizin hərtərəfli inkişafına böyük təkan verdiyini bildirib. Qeyd edib ki, ölkələrimiz beynəlxalq arenada da fəal əməkdaşlıq edir, bir-birini daim dəstəkləyir. Azərbaycan Prezidenti iqtisadi, qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, hərbi, hərbi-texnika sahələrində uğurlu əməkdaşlıqdan bəhs edib, səfər zamanı bir çox sahələr üzrə, o cümlədən Xəzər dənizində birgə işləməyimizlə və






*Azərbaycan-İran biznes forumu*

Astara-Rəşt dəmir yolunun tikintisi ilə bağlı imzalanmış sənədlərin əlaqələrimizin daha da yüksək pilləyə qalxmasına xidmət edəcəyini vurğulayıb, ölkələrimizin həmçinin üçtərəfli, dördtərəfli əməkdaşlıq formatı çərçivəsində uğurla fəaliyyət göstərdiyini qeyd edib.

İran Prezidenti Həsən Ruhani illər boyu əməkdaşlıq üçün potensial və imkanların mövcud olduğunu və bu imkanların hər iki xalqın mənafeyinə xidmət etdiyini vurğulayaraq səfər zamanı imzalanmış rəsmi sənədlərin xoş məram, etimad, qarşılıqlı ehtiram, müştərək mənafe və mehriban qonşuluq əlaqələri sayəsində gerçəkləşdiyini bildirib. Tranzit məsələsinə toxunan İranın dövlət başçısı İranın cənub bölgəsinin sularını, Fars körfəzini, Oman dənizini və Hind okeanını, həmçinin avtomobil yolu və dəmir yolu vasitəsilə Qafqaz, Mərkəzi Asiya və Rusiya ilə, eləcə də Şimali və Şərqi Avropanı birləşdirən Şimal-Cənub dəhlizinin böyük əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, Xəzər dənizinin mənbələrindən və yataqlarından qarşılıqlı istifadədə əməkdaşlığımız xalqlarımızın mənafeyinə geniş xidmət etmiş olar.

Prezident Həsən Ruhani, həmçinin gələcəkdə dərman istehsalı, səhiyyə və enerji mübadiləsi sahələrində, enerji, turizm və digər sahələrə kapital qoyuluşu ilə əlaqədar əməkdaşlığın genişləndirilməsinin mümkünlüyünü, digər istiqamətlər üzrə də qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi üçün hər iki ölkənin iradəsinin olduğunu vurğulayıb.

İran Prezidentinin ölkəmizə səfəri çərçivəsində martın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib. Dövlət başçıları forumda iştirak ediblər.

Tədbirdən əvvəl Neftçala Sənaye Məhəlləsi və burada yaradılan "Azərmaş" ASC və "İran Khodro" şirkətinin birgə layihəsi olan "Xəzər" avtomobil zavodu barədə videoçarx nümayiş olunub.

Zavodun dəyəri 15 milyon ABŞ dolları və səhmlərinin 75 faizi "Azərmaş" ASC-yə, 25 faizi isə "İran Khodro" şirkətinə məxsusdur. Burada İran İslam Respublikasının və Avropanın aparıcı ölkələrinin müasir texnologiyaları əsasında müxtəlif avtomobil modelləri istehsal olunacaq. Bu avtomobillər "Made in Azerbaijan" brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılacaq.

Bu müəssisə ilkin mərhələdə - ildə 10 min avtomobilin istehsalı ilə işə başlayacaq. Sonrakı fazada avtomobillərin istehsalının 15 minə çatdırılması planlaşdırılır. Yaxın gələcəkdə isə 50 min avtomobilin istehsalı nəzərdə tutulub. İstehsal olunan avtomobillər yerli və xarici bazarlarda satılacaqdır. Bu avtomobillər qabaqcıl texnologiya və "Avro 5" standartlarına uyğundur.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani "Xəzər" avtomobil zavodunun açılışını bildirən düyməni basıb və zavodu işə salıblar. Dövlət başçılarına videoçarx əsasında bu müəssisənin fəaliyyəti və istehsal prosesi barədə məlumat verilib, zavodda istehsal edilmiş ilk avtomobil nümayiş olunub.

Sonra Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı görülən işlərdən bəhs edən videoçarx nümayiş olunub, İran ərazisində Azərbaycan Dəmir Yollarının Astara terminalı haqqında məlumat verilib.

Biznes forumda çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan-İran dostluq, qardaşlıq əlaqələri bu gün ən yüksək zirvədədir və səfər zamanı aparılan danışıqlar bunu bir daha təs-






*"Azərmaş" ASC və "İran Khodro" şirkətinin birgə layihəsi olan "Xəzər" avtomobil zavodunun işə salınması*

diq edir. Yüksək səviyyəli siyasi əlaqələrimizin iqtisadi layihələrin uğurlu icrasına imkan verdiyini bildirən dövlətimizin başçısı İran-Azərbaycan əlaqələrinin nəinki iki ölkə üçün, region üçün böyük əhəmiyyətə malik olduğunu söyləyib. Qeyd edib ki, ticarət əlaqələrinin indiki səviyyəsi bizim əlaqələrimizin səviyyəsini əks etdirmir. Ona görə də ticarət dövriyyəsinin artırılması üçün praktiki addımlar atılmalıdır. Gələcəkdə qarşılıqlı ixracımızın artacağına əminliyini ifadə edən Prezident İlham Əliyev Neftçalada yaradılan birgə müəssisənin və İranda Azərbaycan sərmayəsi ilə qurulan yük terminalının iqtisadi əlaqələri gücləndirdiyini bildirib. Dövlətimizin başçısı Azərbaycan və İran tərəfinin ciddi səyləri ilə reallaşan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı görülən işlərdən danışıb, Astara-Rəşt dəmir yolunun tikintisinin maliyyələşdirilməsi və Xəzər dənizindəki blokların işlənməsi ilə bağlı imzalanmış müqavilələrin əhəmiyyətli olduğunu söyləyib.

Azərbaycan Prezidenti bank və maliyyə sektorundakı əməkdaşlığın genişləndirilməsinin zəruri olduğunu bildirərək iş adamlarının fəaliyyəti üçün ölkəmizdə hər cür şəraitin mövcudluğunu diqqətə çatdırıb.

İran Prezidenti Həsən Ruhani xalqlarımızın dini, tarixi və adət-ənənələr baxımından olduqca bir-birinə yaxın olduğunu, ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın, həmçinin, müştərək fəaliyyətimizin bütün regionun xeyrinə olduğunu vurğulayıb, Xəzərdə müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumun əhəmiyyətindən danışıb, Xəzər dənizinin əməkdaşlıq, təhlükəsizlik və dostluq dənizi olduğunu söyləyib.

Həmçinin ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq etdiyini və bir-birinin yanında olduğunu, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayaraq bu layihə ilə bağlı görülən işlərin səmərə verəcəyinz əminliyini ifadə edib.

Ölkələrimiz arasında istifadə olunmayan potensialın Azərbaycan və İran prezidentlərinin şəxsi təşəbbüsləri və xidmətləri sayəsində artıq aktivləşdirildiyini deyən Həsən Ruhani müştərək iqtisadi əlaqələrin xalqlarımızın rifah halının yaxşılaşdırılmasına yönəldilməsinin vacibliyindən danışıb. Səhiyyə, əczaçılıq, bank sektoru, kənd təsərrüfatı, nəqliyyat, elektrik enerjisi, ticarət sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirib.

İran Prezidenti ölkələrimizin turizm potensialından istifadə edilməsinin əhəmiyyətini vurğulayıb, xalqlarımız arasında gediş-gəlişin intensivləşdirilməsi, mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsinin vacibliyini söyləyib.

"Azərbaycanın təhlükəsizliyi bizim təhlükəsizliyimiz, Azərbaycanın inkişafı bizim inkişafımızdır", - deyən Həsən Ruhani iş adamlarına müraciət edərək onları qarşılıqlı layihələrin icrasında fəal olmağa çağırıb.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Həsən Ruhani çay süfrəsi arxasında söhbət edib, dövlətimizin başçısı İran Prezidentini yola salıb.

# VI QLOBAL BAKI FORUMU

## *Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib*




**Azərbaycan tarixi, geostrateji mövqeyi, ənənələri və dinamik inkişafı ilə qlobal arenaya mühüm töhfələr verməkdədir. Bunu müxtəlif amillərlə yanaşı, respublikamızın artıq neçə illərdir ki, mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etməsi təsdiqləyir. Dünya humanitar forumu, sivilizasiyalararası dialoq forumu, müxtəlif idman yarışları və digər qlobal əhəmiyyətli tədbirlər Bakını beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən birinə çevirib.**

Belə mühüm beynəlxalq tədbirlərdən biri də Qlobal Bakı Forumudur. İndiyədək 5 forum keçirilib və bu forumlarda bütün dünyanı narahat edən məsələlər, regionda gedən proseslər, Dağlıq Qarabağ münaqişəsi və bölgədəki digər münaqişələrin həlli üsulu, terror təhdidləri, dinlərarası, mədəniyyətlərarası dialoq, multikulturalizm, demokratiyanın inkişafı, enerji təhlükəsizliyi və digər aktual mövzular ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Cari ilin martın 15-17-də paytaxtımızda keçirilən "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusuna həsr olunan VI Qlobal Bakı Forumunun açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə, həmçinin Albaniya Prezidenti İlir Meta, Makedoniya Prezidenti George İvanov, Moldova Prezidenti İqor Dodon, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin Baş naziri Binəli Yıldırım, xarici işlər naziri Mövlud Çavuşoğlu, xarici işlər nazirinin müavini Əhməd Yıldız, Fələstinin Baş nazirinin müavini Ziad Abu Amr, Bosniya və Herseqovinanın hökumət başçısının müavini Mirko Sarovic, Rumıniya Baş nazirinin müavini Ana Birçall iştirak ediblər.

Eyni zamanda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan və 50-dən artıq ölkəni təmsil




edən sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai-siyasi xadimlərin və alimlərin daxil olduğu 500 nəfərdən çox qonaq tədbirə qatılıb.

Açılışda dövlətimizin başçısı çıxış edərək son illər Azərbaycanın bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini, ölkəmizdə bütün xalqların sülh və mehribanlıq şəraitində yaşadığını, inklüziv cəmiyyətlərin qurulmasının dünya qarşısında vacib məsələ kimi durduğunu diqqətə çatdırıb.

Ermənistanın Azərbaycanın ərazilərinin 20 faizini işğal etdiyini, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini, bu ölkənin Xocalı soyqırımını törətdiyini deyən Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı beynəlxalq qurumlar tərəfindən qəbul edilən qətnamələrin hələ də Ermənistan tərəfindən icra edilmədiyini vurğulayıb. "Status-kvo qəbuledilməzdir, davam edə bilməz", - deyən dövlətimizin başçısı həmsədr ölkələrin də bu mövqedən çıxış etdiyini bildirib.

Münaqişənin mövcudluğuna baxmayaraq Azərbaycanın inkişaf etdiyini və bu inkişafın vətəndaşlarımızın həyatında, şəhərlərimizin görünüşündə hiss olunduğunu qeyd edən ölkə rəhbəri ötən dövrdə sosial-iqtisadi sahədə nailiyyətləri diqqətə çatdırıb, iqtisadi inkişafın həm də müstəqil xarici siyasət yürütmək imkanı verdiyini, bir çox beynəlxalq reytinqlərin respublikamızın göstəricilərini yüksək qiymətləndirdiyini vurğulayıb.

Bildirib ki, ölkəmiz regional əməkdaşlığın inkişafına töhfə verir. Azərbaycan-Gürcüstan-Türkiyə əlaqələri bir çox qlobal layihələrin icrasına şərait yaradır. Artıq yeddi dövləti birləşdirən və 40 milyard sərmayə həcmi olan Cənub Qaz Dəhlizi icra olunur. Enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edən TANAP layihəsinin icrası da başa çatmaq üzrədir. Keçən il isə Bakı-Tbilisi-Qars dəmiryolunun açılması qlobal əhəmiyyət kəsb edən hadisədir və artıq bu layihəyə böyük marağın olduğu görünür.

Azərbaycanın regionda sabitləşdirici rol oynadığını vurğulayan Prezident İlham Əliyev ölkəmizin siyasətinin hər zaman təhlükəsizlik, sabitlik və proqnozlaşdırıla bilməyə yönəlmiş qarşılıqlı əməkdaşlıq və dəstək üzərində qurulduğunu qeyd edib.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin tamam olduğunu söyləyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, müsəlman dünyasında ilk demokratik respublikanın baniləri məhz azərbaycanlılar olublar. Müsəlman aləmində ilk dəfə azərbaycanlılar azad, insanların bütün hüquqlarının qorunduğu cəmiyyətdə yaşamaq arzusunu ifadə ediblər. Bugünkü Azərbaycanın inkişafında Azərbaycan Xalq Cümhuriyyətinin rolu olduqca böyük olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları müasir Azərbaycanın inkişafının şahidi ola bilsəydilər, bizimlə fəxr edərdilər. Biz isə onlarla fəxr edirik və həm özümüzə,




həm də dünyaya nümayiş etdiririk ki, insanlar yalnız müstəqillik dövründə, öz taleyinin sahibi olanda uğura nail olurlar. Bu gün Azərbaycan bunun bariz nümunəsidir.

Sonra Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım çıxış edib. Həmçinin İtaliya Respublikasının Prezidenti Sergio Mattarellanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin, Roma Papası Əlahəzrət Fransiskin, Rumıniyanın Baş naziri xanım Viorika Dançilanın, BMT-nin baş katibi Antonio Quterreşin müraciətləri oxunub. Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa da çıxış edib.

Forumda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ideya və dəyərlərinin təbliğində xüsusi fəallıqları ilə seçilən şəxslərə Mərkəzin Qəyyumlar Şurasının qərarı ilə Nizami Gəncəvi Beynəlxalq mükafatları təqdim olunub.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təhsilin və mədəniyyətin inkişafındakı xidmətlərinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı ilə təltif edilib.

Birinci xanım Mehriban Əliyeva çıxış edərək bu yüksək mükafatla təltif olunmasına görə minnətdarlığını bildirib.

Beynəlxalq sülhün və sabitliyin möhkəmlənməsindəki xidmətlərinə görə Nizami Gəncəvi Beynəlxalq mükafatı ilə İordaniya Kralı II Abdullahın təltif olunduğu elan edilib və mükafat Kral ailəsinin üzvü Rad Bin Al Huseynə təqdim olunub.

Humanitar və mədəni dəyərlərin təbliğindəki töhfələrinə görə ELPIDA təşkilatının prezidenti, UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis Nizami Gəncəvi Beynəlxalq mükafatı ilə təltif edilib.

Üç gün davam edən bu mötəbər tədbir çətçivəsində plenar iclaslar keçirilərək beynəlxalq münasibətlərdə güc anlayışı və meydana çıxan yeni güclər, çoxluqlar milli azlıqlara qarşı, Yaxın Şərq regionunda sülh və təhlükəsizlik, Balkan regionunda hazırkı və gələcək vəziyyət - regional təhlükəsizlik məsələlərinin proqramı və ya yeni geosiyasi şahmat lövhəsi, Çinin xarici siyasəti, kapitalizmdə iqtisadi inkişaf və ətraf mühitin deqradasiyası məsələləri, nəsillər arasındakı bağların qırılması, dini-mədəni müxtəlifliyin siyasi liderlik uğrunda rolu kimi mövzular müzakirə edilib.

# Azərbaycanlıların 1918-ci il soyqırımından 100 il ötür

**Son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılıb. Bu dəhşətli hadisələrdən biri olan 1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirib, diri-diri yandırıblar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıb, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilib.**




Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilib, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Ümummilli Liderin tarixi Fərmanından ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində bir çox yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir. Prezident İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli Sərəncamı ilə Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasına başlanılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan kompleks 2013-cü il sentyabrın 18-də açılıb.

2017-ci ildə dövlət başçısının kompleksin mövcud vəziyyətinin araşdırılması və baş verən proseslərin qarşısının alınması ilə bağlı tapşırığına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri tərəfindən "Quba şəhərində "Soyqırımı memorial kompleksi" ilə bağlı bəzi məsələlər haqqında" sərəncam imzalanıb və müvafiq komissiya yaradılıb.

Dövlət başçısının 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatı, xaricdəki səfirliklərimiz tərəfindən geniş yad edilir. Erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə çoxsaylı tədbirlər həyata keçirilir.



*1918-ci il mart soyqırımının nəticələri*




## Quba Soyqırımı Memorial Kompleksinə yürüş

Martın 31-də 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar Qubada Soyqırımı Memorial Kompleksinə yürüş təşkil olunub.

Yürüşdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları və ölkəmizin bütün bölgələrindən vətəndaşlar iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb.

Sonra 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar yürüş başlayıb.

Azərbaycan Respublikası Prezidentinin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamına əsasən təşkil olunan yürüş Dövlət Pedaqoji Universitetinin Quba filialının qarşısından Memorial Kompleksə qədər davam edib.

Minlərlə insanın qatıldığı yürüşdə "Erməni vandalları cəzalandırılsın!", "Ermənistanın 100 illik terroru!", "1918-ci il soyqırımını unutmadıq!", "Xocalıya ədalət!" şüarları səsləndirilib.

Yürüş iştirakçıları Quba Soyqırımı Memorial Kompleksinin ərazisində soyqırımı qurbanlarının xatirə abidəsinin önünə əklil və gül dəstələri qoyublar.

Soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan sonra onların ruhuna dualar oxunub.










◆ **Respublika elmi konfransı**

Quba Soyqırımı Memorial Kompleksinin zalında 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr edilmiş respublika elmi konfransı keçirilib.

Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Soyqırımlarının dərsləri" mövzusunda keçirilən konfrans "Quba soyqırımı" filminin nümayişi ilə başlayıb.

Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək son iki yüz ildə Azərbaycan xalqının başına gətirilən müsibətlərdən danışıb.

Sonra Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edərək azərbaycanlıların soyqırımının 100 illiyi və Quba Soyqırımı Memorial Kompleksi ilə bağlı görülən işlər barədə məlumat verib, Prezident İlham Əliyev tərəfindən imzalanmış "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamın əhəmiyyətinə toxunub.

Əslində, azərbaycanlıların 1918-ci il soyqırımının Azərbaycan Xalq Cümhuriyyətinin qurulması yolunda xalqımızın üzləşdiyi ən ağır sınaq olduğunu vurğulayan Prezidentin köməkçisi bildirib ki, amansız qırğına və ağır itkilərə baxmayaraq, xalqımız bu sınaqdan keçərək öz taleyinə və torpaqlarına sahib çıxdı, Şərqdə ilk müstəqil respublika yaratdı. İki aydan sonra Xalq Cümhuriyyətinin yaradılmasının 100 ili tamam olur.




Əli Həsənov tarixin müxtəlif dövrlərində xalqımızın erməni millətçiləri tərəfindən soyqırımı cinayətlərinə, kütləvi qırğınlara, deportasiyalara, etnik təmizləmələrə və terrora məruz qaldığını, həmin hadisələrə yalnız ölkəmiz müstəqillik qazandıqdan sonra siyasi-hüquqi qiymət imkanı yarandığını vurğulayıb, bu baxımdan ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanın mühüm tarixi əhəmiyyətini qeyd edib. O, hələ də dünyanın bir çox yerlərində soyqırımı cinayətlərinin baş verdiyini, dünyanın mütərəqqi qüvvələri, ictimai, siyasi, elm və mədəniyyət xadimləri tərəfindən bu cinayətlərə yol açan etnik, irqi və dini dözümsüzlüyə, düşmənçilik yaradan bütün hallara qarşı qətiyyətlə mübarizə aparılmasının vacibliyini önə çəkib, elmi konfransın erməni millətçilərinin insanlığa qarşı əməllərini ifşa etməklə yanaşı, bir daha belə halların baş verməməsi, insanların sülh və əmin-amanlıq şəraitində təhlükəsiz yaşayışının təmin olunması istiqamətində

Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü fəaliyyətə ölkəmizin elmi ictimaiyyətinin töhfəsi olduğunu vurğulayıb.

Sonra mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı akademik Yaqub Mahmudov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Türk Tarix Qurumunun Erməni Araşdırmaları Mərkəzinin rəhbəri, professor Kamal Çiçək, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə çıxış ediblər.

Daha sonra dini konfessiyaların rəhbərləri soyqırımı qurbanlarının xatirəsinə dualar oxuyublar.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov konfransa yekun vurub.





## Foto və kitab sərgisi

Quba Soyqırımı Memorial Kompleksində "1918-ci ilin mart soyqırımı Belarus fotoqrafı Lev Daşkeviçin gözü ilə" adlı fotosərgi və azərbaycanlıların soyqırımına həsr edilmiş kitab sərgisi açılıb.

Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksinə təşkil olunan yürüşün və burada keçirilən respublika elmi konfransının iştirakçıları sərgilərlə tanış olublar.

Məlumat verilib ki, Lev Daşkeviç Azərbaycan Xalq Cümhuriyyəti dövründə soyqırımı faktlarının araşdırılması məqsədilə yaradılmış Fövqəladə İstintaq Komissiyasının tərkibində fotoqraf-ekspert kimi fəaliyyət göstərib. Fotoqrafın Şamaxı şəhərində və kəndlərində çəkdiyi şəkillərin sayı 62-dir. Onlardan 45-i şəhərin özündə, 17-si isə kəndlərdə, xüsusilə Əngəxaran, Ağsu, Boyat, Mərzəndiyə, Təklə-bəy, Çarhan və Çuxanlıda çəkilib.

Şamaxı şəhərinin müsəlmanlar yaşayan hissəsində çəkilmiş fotoşəkillərdə evlərin, müxtəlif təyinatlı tikililərin alovun təsirindən qaralmış divarları ilə yanaşı, ayrı-ayrı iriölçülü binaların xarabalıqlarını aydın görmək olar. Şəhərin bu hissəsindəki dağıntıların mərkəzində əzəmətli tikililərdən olan Cümə məscidinin yanmış divarları və yanğının təsirindən uçub dağılmış minarəsi diqqəti cəlb edir. Bir sözlə, fotolarda Şamaxı şəhərinin ermənilərin soyqırımı nəticəsində necə dağıdıldığı, xarabalığa çevrildiyi bilinir.

Belaruslu fotoqrafın Şamaxıda çəkdiyi şəkillərin bəziləri tükürpərdici olması ilə seçilir. Şıxminas kənd sakini Sultanovun evinin həyətindəki insan sümükləri: kəllə sümüyü, alt çənə sümüyü, qabırğa və onurğa sümüklərinin qalıqları erməni-daşnak hərbi birləşmələrinin törətdiyi vəhşilikləri əks etdirir. Bu evə sığınmış uşaqlı qadınlar burada silahlı dəstələr tərəfindən qətlə yetirilib.

Kitab sərgisində isə 1918-ci ilin mart soyqırımına dair araşdırma materiallarının toplandığı nəşrlər sərgilənib.

Tədbirlərdə ədliyyə nazirinin müavini, Soyqırımı memorial kompleksi ilə bağlı müvafiq Komissiyanın üzvü Toğrul Musayev iştirak edib.

# Azərbaycanlıların soyqırımının yüzüncü ildönümü ədliyyə orqanlarında yad edilib




*Quba Soyqırımı Memorial Kompleksini ziyarət*

**Əsrlər boyu xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirən təcavüzkar erməni millətçiləri tərəfindən 1918-ci ildə törədilmiş azərbaycanlıların soyqırımından 100 il ötür. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən xüsusi Sərəncam imzalanıb və qəbul olunmuş müvafiq tədbirlər planına uyğun olaraq ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir.**

Bu kütləvi qırğın zamanı on minlərlə dinc sakin amansızcasına qətlə yetirilib, neçə-neçə yaşayış məntəqələri dağıdılaraq yerlə-yeksan edilib, milli-mədəni abidələrimiz yandırılaraq məhv edilib.

Xalqımızın qan yaddaşına əbədi həkk olunmuş ağır hadisələrlə əlaqədar Ədliyyə Nazirliyində və struktur qurumlarda tədbirlər keçirilib, bu ərəfədə ədliyyə naziri Fikrət Məmmədov və nazirliyin məsul işçiləri Quba Soyqırımı Memorial Kompleksini ziyarət edərək faciə qurbanlarının əziz xatirəsini ehtiramla yad ediblər.

Soyqırımla bağlı ədliyyə orqanlarında anma mərasimləri keçirilərək erməni vəhşiliklərinin və cinayətlərinin tarixinə nəzər salınıb, bu qanlı aksiyanın statistikası, miqyası və qəddarlığına görə bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğu bildirilib.

Tədbirlərdə vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərmiş Fövqəladə İstintaq Komissiyasının soyqırımının nəticələrinin araşdırılmasında, tarixi həqiqətlərin aşkara çıxarılmasında rolundan bəhs olunub, bu dəhşətli faciəyə yalnız müstəqillik dövründə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymətin verildiyi, Ulu



*Ədliyyə tarixi muzeyində gənclərlə görüş*



*“Genosid-100” sərgisi ilə tanışlıq*





*Ədliyyə işçiləri Nizami Kino Mərkəzində "Yaddaşın rəmzi. Quba-1918" filmini izləyiblər*

Öndərin 1998-ci ildə imzaladığı Fərmanla martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü elan edildiyi vurğulanıb.

Ötən dövrdə bu barədə həqiqətlərin dünyada yayılması istiqamətində Azərbaycan dövləti, eləcə də Heydər Əliyev Fondu tərəfindən görülən mühüm və tarixi işlərdən danışılıb, dövlət başçısının imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamının ermənilərin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılmasında müstəsna əhəmiyyəti qeyd olunub.

Bildirilib ki, bu kütləvi qırğından yüz il keçsə də, soyqırımı qurbanlarının xatirəsi xalqımızın qəlbində daim yaşayacaq, faciəni törədənlər gec-tez layiqli cəzalarını alacaqlar.

Azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar, həmçinin mətbuatda çıxışlar edilib, faciəyə həsr olunmuş tədbirlərdə, yeni kitabların təqdimatında iştirak edilib, habelə gənc ədliyyə işçiləri Ədliyyə tarixi muzeyində xüsusi tarixi sənədlər əsasında yeni məlumatlara yiyələnib, Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Dövlət Rəsm Qalereyası ilə birgə təşkil etdiyi "Genosid-100" adlı sərgi ilə tanış olub, Nizami Kino Mərkəzində "Yaddaşın rəmzi. Quba-1918" filminə baxıblar. Soyqırımla bağlı, həmçinin nazirliyin kinozalında filmlər, foto-slaydlar nümayiş etdirilib.

# 31 Mart soyqırımı dünya azərbaycanlılarının tarixi yaddaş günüdür

**Məhərrəm ƏLİYEV,**
**Azərbaycan Respublikası ədliyyə nazirinin müavini**

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünün azadlığı və istiqlalı uğrunda daim mübarizə aparmış, Azərbaycan tarixinin əhəmiyyətli və yaddaqalan dövrlərindən olan XX əsrin əvvəllərində dövlət müstəqilliyini elan etmişdir.

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmişdir.

Bu tarixi hadisənin 100 illiyi münasibətilə möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən xüsusi Sərəncam imzalanmış, ölkədə və onun hüdudlarından kənarda Cümhuriyyətin 100 illik yubileyinə həsr olunan silsilə tədbirlər keçirilir. Heç də təsadüfi deyil ki, dövlət başçısının digər Sərəncamı ilə 2018-ci il respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonun-

da yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur.

Lakin Cümhuriyyət yaranmamışdan əvvəl xalqımızın mövcudluğunu belə şübhə altında qoyan faciələr baş vermiş, fasilələrlə iki yüz ildən çox davam edən erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı soyqırımı siyasətinin əsas məqsədi bu ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. Mənfur siyasətin reallaşdırılması üçün ardıcıl olaraq ideoloji, hərbi və təşkilati xarakterli tədbirlər həyata keçirilmişdir.

XIX əsrdən xalqımızın tarixi kobud surətdə təhrif olunmağa, erməni tarixçiləri və ideoloqları tərəfindən torpaqlarımızın, mədəniyyət abidələrimizin ermənilərin adlarına çıxmağa başlamışlar. Azərbaycanlıların soyqırımı təcavüz, terror, hətta ayrı-ayrı vaxtlarda irimiqyaslı hərbi əməliyyatlarla müşayiət olunmuşdur.

1918-ci il mart-aprel aylarında erməni daşnak və bolşevik dəstələri tərəfindən bütöv bir xalqın kökünün kəsilməsi məqsədilə törədilmiş azərbaycanlıların soyqırımı bəşəriyyət əleyhinə törədilmiş ən dəhşətli faciə olmuşdur. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yaratdığı Fövqəladə İstintaq Komissiyasının soyqırımın araşdırılması ilə bağlı böyük iş görərək topladığı istintaq materialları tarixi həqiqətlərin aşkara çıxarılmasında böyük rol oynamışdır.

Həmin dövrdə Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində erməni-bolşevik təcavüzkar dəstələri tərəfindən minlərlə dinc azərbaycanlının, o cümlədən qadınların, uşaqların, qocaların qətlə yetirildiyi, neçə-neçə kəndin dağıdıldığı, mühüm tarixi mədəniyyət abidələrinin yandırıldığı və uçurulduğu Fövqəladə İstintaq Komissiyasının rəsmi materiallarında öz əksini tapmışdır. İri sənayeçilərə, zavod, liman, neft mədənləri sahibkarlarından başlayaraq çoxsaylı mülki, sosial və ticarət obyektlərinin sahiblərinə yüz milyonlarla dəyərində maddi ziyan vurulmuşdu. Azərbaycanlıların mədəni-ictimai və dini mərkəzini təcəssüm etdirən "İslamiyyə" - Müsəlman Xeyriyyə Cəmiyyətinin binası dağıdılmış, "Kaspi" və "Açıq söz" qəzetlərinin, "Dağıstan", "İsgəndəriyyə" və "İslamiyyə" mehmanxanalarının binaları və müsəlmanların qaldıqları mehmanxana və karvansaralar orada olan insanlarla birlikdə yandırılmışdı. Bu dəhşətli qırğınlar zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, əhalini uşaqdan böyüyə qətlə yetirmişlər.

Xalq Cümhuriyyəti dövründə əvvəlcə Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərmiş, sonra isə Ədliyyə Nazirliyinin sərəncamına verilmiş Fövqəladə İstintaq Komissiyasının arxiv materiallarından aydın olur ki, 1918-ci ildə yenicə fəaliyyətə başlayan cümhuriyyət hökumətinin ilk addımlarından biri məhz soyqırımı hadisələrini araşdırmaq, ona hüquqi qiymət vermək, dünyanı məlumatlandırmaq olmuşdur. Təsadüfi deyil ki, 31 mart tarixi iki dəfə - 1919-cu və 1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi müasir müstəqil Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi işlərin məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul etmiş, ölkəmiz müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etmişdir.

Qeyd olunmalıdır ki, xalqımıza qarşı həyata keçirilmiş soyqırımı siyasətinin uzun tarixi olsa da,

rəsmi sənədlər daim gizlədilmiş, təhrif olunmuşdur. Bu barədə əsl həqiqətlər yalnız ulu öndər Heydər Əliyev qətiyyəti sayəsində dünya ictimaiyyətinə çatdırılmışdır. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılmış, təhrif edilmiş hadisələr özünün əsl qiymətini almağa başlamışdır.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə 1918-ci ildə erməni-bolşevik dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımına tarixi qiymət verilmiş, 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Həmin Fərmanın imzalanmasından 20 il ötür. O gündən etibarən soyqırımı qurbanlarının xatirəsi dərin ehtiramla yad edilir, ölkədə və ölkə xaricində silsilə tədbirlər, anım mərasimləri keçirilir.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmışdır. Bu işdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondu da çox mühüm və tarixi işlər görür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır.

2007-ci il aprelin 1-də Quba rayonunda torpaq işləri görülərkən ərazidə aşkar olunmuş kütləvi insan məzarlığı erməni terrorçularının xalqımıza qarşı törətdikləri qanlı faciənin bariz nümunəsidir. Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində hədsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanların zorakılığa məruz qaldığı aşkar edilmişdir.

Dövlət başçısının 30 dekabr 2009-cu il tarixli Sərəncamı ilə Quba şəhərində yaradılmış "Soyqırımı memorial kompleksi" ermənilərin qanlı izlərini, onların əsl simasını, vəhşiliklərini, cinayətkar əməllərini bütün dünyaya çatdırmaq, soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək baxımından çox böyük tarixi məna daşıyır.

1918-ci il azərbaycanlıların soyqırımından 100 il ötür. Ölkə Prezidenti cənab İlham Əliyevin bu ilin yanvarında imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamı erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılmasında müstəsna əhəmiyyətə malikdir.

Ermənilər və onların tarixi havadarlarının soydaşlarımızın başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında Azərbaycan vətəndaşlarının, xarici ölkələrdəki azərbaycanlı icmalarının, Azərbaycan diasporunun üzərinə böyük məsuliyyət düşür. Ermənilərin saxta təbliğatı nəticəsində formalaşmış yalan təsəvvürləri dəyişdirmək, düzgün hüquqi-siyasi qiymət vermək, əsl soyqırımı haqqında həqiqətləri çatdırmaq, yanlış stereotipləri dağıtmaq nə qədər çətin olsa da, şərəfli və müqəddəs bir iş kimi davam etdirilməlidir. 31 mart soyqırımı dünya azərbaycanlılarının kədər və hüzn, tarixi yaddaş günüdür. Bu kütləvi qırğından yüz il keçsə də, soyqırımı qurbanlarının xatirəsi xalqımızın qəlbində daim yaşayacaq, faciəni törədənlər gec-tez layiqli cəzalarını alacaqlar.

# Ədliyyə naziri Qubada vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq martın 7-də ədliyyə naziri Fikrət Məmmədov Quba rayonunda Quba, Xaçmaz və Qusar rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının, o cümlədən rayonda yerləşən 9 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsinin, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi Quba "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub, ədliyyə işçiləri ilə müşavirə keçirib.



İclasda ədliyyə fəaliyyətində şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunub, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıqlar verilib.

Eyni zamanda, Quba Rayon Məhkəməsinin yeni müasir binasında olaraq fəaliyyəti və iş şəraiti ilə tanış olunub, müşavirə keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının tapşırıqlarından və qanunvericiliyə edilmiş dəyişikliklərdən irəli gələn vəzifələrə toxunulub.

Səfər çərçivəsində ədliyyə naziri Quba Soyqırımı Memorial Kompleksini ziyarət edərək, faciə qurbanlarının əziz xatirəsini ehtiramla yad edib, ermənilərin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılmasında ölkə Prezidentinin cari ilin yanvarında imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi" haqqında Sərəncamının müstəsna əhəmiyyətini vurğulayıb.



# Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunub










**Ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinə uyğun olaraq gənclərin işlə təminatı daim diqqətdə saxlanılır, bu məqsədlə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı mütəmadi müsabiqələr keçirilir.**

Aparılmış şəffaf seçimlər əsasında son illər ədliyyə orqanlarına böyük əksəriyyəti gənclər olan 2500-dən çox hazırlıqlı, müasir texnologiyalara bələd və mənəvi cəhətdən saf kadrlar qulluğa qəbul olunub. Onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir və bir çoxu ali dövlət orqanında məsul vəzifələrə irəli çəkiliblər.

Bununla yanaşı, gənclərdə ədliyyə sahəsində işləməyə həvəsi artırmaq, onların məşğulluğunun təmin olunmasına şərait yaratmaq məqsədilə könüllülük institutu təşviq olunaraq, son illər 250-dək gənc ədliyyə qurumlarında və məhkəmələrdə fəaliyyətə cəlb edilib.

Eyni zamanda, qulluğa qəbul üzrə müsabiqələr zamanı vətəndaşların müraciət imkanları və elektron xidmətlərin tətbiqi genişləndirilir, namizədlərin imtahanlara mükəmməl hazırlaşmalarına və yüksək nəticələrə nail olmalarına köməklik məqsədilə əvvəlcədən Ədliyyə Akademiyasında ödənişsiz hazırlıq kursları təşkil edilir, habelə şəffaflığın tam təmin olunması üçün test imtahanları internetdə "on-line" rejimində canlı yayımlanır, müsabiqənin bütün mərhələləri vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən tam müşahidə olunur.

Uğur qazanan namizədlər Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilir, tədrisin və təcrübi biliklərə yiyələnmənin daha keyfiyyətli təşkilinə xüsusi diqqət yetirilir.

Bu günlərdə növbəti müsabiqənin bütün mərhələlərindən keçərək 100-ə yaxın hüquqşünas peşə fəaliyyətinə buraxılıblar.

Onlar martın 14-də Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri düzüblər. Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət ediblər.

Həmçinin, ədliyyə orqanlarına qulluğa qəbul olunmaları ilə bağlı hüquqşünaslarla Ədliyyə Nazirliyi rəhbərliyinin görüşü keçirilib.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək son illər respublikamızın davamlı tərəqqisinin, sabitliyin və təhlükəsizliyin təmin olunduğunu vurğulayıb, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib.

Ədliyyə və məhkəmə sistemində aparılan islahatlardan geniş söhbət açan nazir stajorlara işlərində məsuliyyətli olmağı, insanlara layiqli xidmət göstərməyi, qanunçuluq, humanizm prinsiplərinə, etik davranış qaydalarına dönmədən əməl etməyi tövsiyə edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirilib ki, ədliyyə orqanlarına qulluğa qəbulla bağlı bu ayın əvvəlində yeni müsabiqə elan olunub.

Çıxış edən gənclər müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisinə və qüdrətlənməsinə sədaqətlə xidmət göstərəcəklərini vurğulayıb, onlara bu əziz bayram ərəfəsində göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına, ölkəmizin ictimai həyatında əsl vətəndaş mövqeyindən çıxış edəcəklərinə söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər və onlara xidməti vəsiqələr təqdim edilib.

Tədbirdə ədliyyə nazirinin müavini, Müsabiqə Komissiyasının sədri Toğrul Musayev iştirak edib.

# 8 mart - Qadınlar günü ədliyyə orqanlarında qeyd olunub






**Ədliyyə Nazirliyində 8 mart - Qadınlar günü münasibətilə tədbir keçirilib.**

Çıxış edən ədliyyə nazirinin müavini Toğrul Musayev əlamətdar gün münasibətilə nazirliyin rəhbərliyi adından qadın əməkdaşları təbrik edib, onlara cansağlığı, səadət və fəaliyyətlərində nailiyyətlər arzulayıb.

Bildirilib ki, ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş dövlət qadın siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək onların dövlətin və cəmiyyətin idarə olunmasında, hüquqi dövlət quruculuğunda fəal iştirakına hər cür şərait yaradılıb. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, gördüyü işlər, xeyirxah əməlləri hər kəsə örnəkdir.

Yığıncaqda ədliyyə orqanlarında qadınların səmərəli fəaliyyəti, Azərbaycan ədliyyəsinin inkişafında dəyərli töhfələri qeyd olunub, hədiyyələr təqdim edilib.

Bayram münasibətilə nazirliyin struktur qurumlarında da tədbirlər keçirilib.

# Azərbaycan dövləti işgəncələrə və pis rəftara qarşı dözümsüzlük nümayiş etdirir

**Faiq Qurbanov,**
**Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi**
**III dərəcəli dövlət ədliyyə müşaviri**

**Ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli mütərəqqi islahatların qaynaqlarında duran insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı məsələsi daim diqqət mərkəzində saxlanılaraq Ulu Öndərin bilavasitə müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında dövlətimizin ali məqsədlərindən biri kimi təsbit olunmuş, Konstitusiyanın maddələrinin üçdə bir hissəsi insan hüquq və azadlıqlarına həsr edilmişdir.**

Qeyd olunmalıdır ki, insan hüquqlarının təminatı məsələsi hər bir dövlətin ən ümdə vəzifəsi olmaqla onun fəaliyyətinin əsas prioritetini təşkil edir. Bu fəaliyyət isə özünü bu sahədə milli qanunvericilik bazasının yaradılmasında, beynəlxalq sənədlərin ratifikasiyası və orada nəzərdə tutulan beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyasında, bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın qurulmasında büruzə verir.

Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən ölkəmiz 2001-ci ildə Avropa Şurasına üzv qəbul edilmiş, üzərinə bir sıra mühüm öhdəliklər götürərək ötən dövrdə bu mötəbər qurumla səmərəli qarşılıqlı fəaliyyətdə ardıcıl və məqsədyönlü islahatlar həyata keçirmişdir.

Avropa Şurasının Azərbaycan üçün demokratiyanın inkişafına, insan hüquqlarının daha etibarlı təminatına, qanunun aliliyinə xidmət edən Fəaliyyət Planının qəbul olunaraq həyata keçirilməsi əməkdaşlığımızın davamlı xarakterə malik olmasından xəbər verir.

Eyni zamanda Avropa Şurası ilə bir çox istiqamətlərdə, xüsusilə məhkəmə-hüquq, yerli özünüidarə, vətəndaş cəmiyyəti, korrupsiyaya qarşı mübarizə və digər sahələrdə effektiv əməkdaşlıq edilir, birgə mühüm layihələr təşviq olunur, Avropa Şurasının ixtisaslaşmış struktur qurumları ilə səmərəli qarşılıqlı fəaliyyət davam etdirilir.

Həmin təsisatlardan biri İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsidir (CPT). 1989-cu ildə qüvvəyə minən "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasına əsasən yaradılmış Komitənin əsas məqsədi məhz Avropada azadlıqdan məhrum edilmiş şəxslərlə necə rəftar olunduğunu qiymətləndirmək, onların saxlanıldığı yerlərə səfərlər təşkil edərək pis rəftarın qarşısının alınmasına köməklik göstərməkdir. Bu yerlərə əsasən penitensiar müəssisələr, müvəqqəti saxlama təcridxanaları, miqrantların saxlanıldığı mərkəzlər, psixiatriya xəstəxanaları, sosial reabilitasiya evləri və s. daxildir.

CPT nümayəndələrinin azadlıqdan məhrum etmə yerlərinə maneəsiz baş çəkmək hüququ vardır və onlar orada saxlanılan şəxslərlə sərbəst görüşə, məlumatlar ala bilərlər.

CPT tərəfindən dövlətlərə vaxtaşırı (adətən hər dörd ildə bir dəfə), lakin zərurət olduqda əlavə "ad hoc" səfərlər həyata keçirilir.

2001-ci ildə ölkəmiz "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını ratifikasiya edərək CPT ilə əməkdaşlıq münasibətləri qurulmuş, ötən dövrdə CPT tərəfindən Azərbaycana dörd dövri və yeddi xüsusi (ad hoc) olmaqla bütövlükdə on bir səfər edilmiş və verilən tövsiyələrin icrası üzrə konkret tədbirlər görülmüş, o cümlədən cəza-icra qanunvericiliyinə edilmiş mütərəqqi dəyişikliklərə uyğun olaraq məhkumların hüquqları xeyli genişləndirilmiş, həmçinin "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Qanun qəbul olunmuşdur.

Eyni zamanda CPT ilə əməkdaşlıqda şəffaflıq prinsipindən çıxış edilərək Azərbaycan tərəfi Komitənin ölkəmizə etdiyi səfərlərinin nəticələri

üzrə konfidensial xarakter daşıyan hesabatların müvafiq Konvensiyaya uyğun olaraq açıqlanması təşəbbüsü ilə dəfələrlə çıxış etmiş və həmin hesabatlar dərc olunmuşdur. CPT-nin Azərbaycana dövrü və xüsusi səfərləri üzrə hesabatları Komitənin internet səhifəsində də rəsmi dərc edilmişdir.

Əhalinin həssas təbəqələrinin, xüsusilə azadlıqdan məhrum edilmiş şəxslərin hüquqlarının təmin edilməsi sahəsində CPT ilə yanaşı, BMT-nin İşgəncələrə qarşı Alt Komitəsi (SPT) və Özbaşına Saxlanma üzrə İşçi Qrupu, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə səmərəli əməkdaşlıq quruloraq həyata keçirilir.

İşgəncələr və digər qəddar, qeyri-insani hərəkətlərin, yaxud ləyaqəti alçaldan rəftarın qarşısının alınması üçün beynəlxalq təşkilatlar tərəfindən təklif edilmiş tövsiyələrə uyğun olaraq hələ 2000-ci ildə qəbul olunmuş yeni Cinayət Məcəlləsinə işgəncəyə görə cinayət məsuliyyəti nəzərdə tutan müvafiq maddə daxil edilmiş, təhqiqat, ibtidai istintaq dövründə və ya cəza çəkilərkən, habelə hərbi xidmət dövründə vəzifəli şəxslər tərəfindən vətəndaşların və ya həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin işgəncə və ləyaqəti alçaldan qeyri-insani rəftar və cəza növlərinə məruz qalmaları cinayət qaydasında cəzalandırılmalı əməllər kimi müəyyənləşdirilmişdir.

Həmin ildə həmçinin Azərbaycan Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında BQXK nümayəndələrinə azadlıqdan məhrumetmə yerlərinə baş çəkmək səlahiyyəti verən Sazişin imzalanması, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin siyasi iradə nümayiş etdirərək Sazişin müddətinin ötən dövrdə dəfələrlə uzadılması məhz məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının təminatına, işgəncənin və pis rəftarın digər hallarının qarşısının alınmasına xidmət edir.

Eyni zamanda, CPT-nin ölkəmizə ilk səfərindən öncə bu beynəlxalq təsisatın fəaliyyəti və standartları, monitorinq sisteminin məqsədləri, xüsusiyyətləri və iş üsulları, edilən səfərlər zamanı baxılan məsələlər barədə geniş məlumatlandırmanın təmin edilməsi məqsədilə ədliyyə nazirinin təşəbbüsü ilə nazirlikdə Avropa Komitəsi üzvlərinin, aidiyyəti hüquq-mühafizə və dövlət orqanlarının, məhkəmələrin, cəzaçəkmə müəssisələrinin, qeyri-hökumət və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə informasiya seminarı keçirilmişdir.

Bununla yanaşı, həmin dövrlərdə BMT və digər nüfuzlu təşkilatların ekspertlərinin, həmçinin bilavasitə məhkumların özlərinin iştirakı ilə Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu ilə birgə Azərbaycanın penitensiar müəssisələrində tədbirlərin təşkil olunması, o cümlədən ilk dəfə olaraq "İşgəncəsiz cəmiyyət" mövzusunda dəyirmi masaların keçirilməsi də ölkəmizdə işgəncələrə və pis rəftara dözümsüzlüyü, insan hüquqlarının qorunmasına həssas münasibəti təcəssüm etdirir.

Qeyd olunmalıdır ki, ölkəmizdə penitensiar sistemdə genişmiqyaslı islahatlar aparılarkən CPT-nin tövsiyələri ilə bu sahədə qabaqcıl dövlətlərin təcrübəsindən faydalanılmış və bu gün ən müasir beynəlxalq standartlara uyğun yeni penitensiar müəssisələr inşa edilərək istifadəyə verilir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2017-ci il fevralın 10-da imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam bu sahədə islahatların daha intensiv davamına rəvac vermiş və ötən bir ildə bu mühüm sənədin icrası üzrə qanunvericilik, institusional və praktiki tədbirlər həyata keçirilmiş, cəzaçəkmə yerlərində pis rəftarın növü kimi xarakterizə olunan sıxlığın azaldılması üzrə mühüm addımlar atılmışdır.

Yeri gəlmişkən, həmin ərəfədə respublikamıza səfər etmiş İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin prezidenti Mikola Qnatovski Azərbaycan Prezidentinin Sərəncamını yeni cəza siyasətinin əsas təməl daşı kimi dəyərləndirmiş, sənədin mahiyyətinin Komitənin məqsədləri ilə üst-üstə düşdüyünü, onun penitensiar sistemin təkmilləşməsinə, məhkumların hüquqlarının etibarlı qorunmasına xidmət edəcəyini vurğulamışdır.

Sözsüz ki, ölkə başçısının siyasi iradəsini nəzərə alaraq insan hüquqlarının təmin edilməsi, ədliyyə və digər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən işgəncə və pis rəftarın digər hallarına qəti dözümsüzlük nümayiş etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Eyni zamanda, pis rəftarın qeyd-şərtsiz yolverilməzliyi nəzərə alınaraq, işgəncə və pis rəftarla bağlı bütün müraciətlər dolğun, hərtərəfli və obyektiv araşdırılmalı və belə faktlar öz təsdiqini tapdığı təqdirdə təqsirli şəxslərin məsuliyyətə cəlb olunması üçün heç bir güzəşt edilmədən ən sərt tədbir-



lər tətbiq olunmalıdır, bununla da işgəncəyə görə cəzanın mütləq qaçılmazlığı prinsipi təmin edilir.

Bu prinsipin və siyasi iradənin bariz təzahürü olaraq Prezident yanında Əfv Məsələləri Komissiyası tərəfindən işgəncə və ya pis rəftara görə məsuliyyətə cəlb olunmuş şəxslərə münasibətdə əfv, habelə amnistiya aktlarının tətbiq olunmaması qərara alınmışdır.

Bununla yanaşı, yerli və beynəlxalq hüquq müdafiə təşkilatları tərəfindən cəzaçəkmə müəssisələrində aparılan ictimai nəzarətin təsirli mexanizmlərindən olan müstəqil monitorinqlər zamanı işgəncə və pis rəftar hallarının olub-olmamasına, habelə işgəncələrə qarşı treninqlərin, maarifləndirmə tədbirlərinin davamlı şəkildə keçirilməsinə xüsusi önəm verilir ki, bu tədbirlər də, sözsüz ki, neqativ halların qarşısının alınmasına xidmət edir.

İşgəncələrə qarşı Avropa Komitəsinin (CPT) Danimarkanın Avropa Şurasının Nazirlər Komitəsində sədrliyi çərçivəsində Kopenhagendə cari ilin 21-24 mart tarixlərində birgə təşkil etdiyi "Polis müvəqqəti saxlama yerlərində və istintaq təcridxanalarında işgəncələrə qarşı mübarizə" adlı seminar Avropa məkanında işgəncələrə qarşı mübarizə sahəsində mövcud təhdidlərə və müsbət təcrübələrə dair fikir mübadiləsinin aparılması baxımından olduqca əhəmiyyətli olmuşdur.

Avropa Şurasına üzv ölkələrinin (Almaniya, Fransa, Danimarka, Albaniya, Avstriya, Polşa, Macarıstan, İrlandiya, Latviya, Gürcüstan, Rusiya, Ukrayna və digərləri) ədliyyə, daxili və xarici işlər nazirliklərinin nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmiz Ədliyyə və Daxili işlər nazirliklərinin aidiyyəti rəhbər və məsul şəxslərindən ibarət nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Seminarın açılışında Danimarkanın xarici işlər naziri Anders Samuelsen və CPT-nin prezidenti Mikola Qnatovski tərəfindən çıxışlar edilmişdir.

İştirakçısı olduğum tədbirin işgəncələrin qarşısının alınması sahəsində zəmanətlər və polisdə dindirmə adlı sessiyaları çərçivəsində müvafiq təqdimatlar edilmişdir. Avropa məkanında işgəncələrin qarşısının alınması ilə əlaqədar cinayət ədliyyə sistemlərinin fəaliyyətinə və zəmanətlərə həsr olunmuş tədbirdə məhkəmə zəmanətləri, istintaq, cinayət təqibi məsələləri və şikayət mexanizmləri nəzərdən keçirilmiş, saxlanılma yerlərində zəmanətlər müzakirə olunmuşdur. Həmçinin, polis dindirmələri zamanı işgəncə hallarının qarşısının alınması məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Seminarda bir çox ölkələrin, o cümlədən Danimarka, Latviya, Gürcüstanın nümayəndələri bu sahədə öz təcrübələri haqqında məlumat vermişlər. Tutulmuş şəxslərin hüquqlarının təmin edilməsi, işgəncə və pis rəftara məruz qalmaması sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər, post-sovet məkanında ilk dəfə olaraq Azərbaycanda istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin Daxili İşlər Nazirliyindən alınaraq Ədliyyə Nazirliyinin tabeçiliyinə verilməsi iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Qeyd olunmalıdır ki, cəza siyasətinin

humanistləşdirilməsinə dair ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamının işgəncə və pis rəftarla mübarizəyə xidmət edən bir sıra mühüm tədbirlərin həyata keçirilməsində əhəmiyyəti və sənədin hüquq-mühafizə və məhkəmə orqanları üçün bir "yol xəritəsi" olması, bütövlükdə dövlət başçısının siyasi iradəsinə uyğun olaraq ədliyyə, daxili işlər nazirləri və baş prokuror tərəfindən hüquq mühafizə orqanları əməkdaşlarının işgəncə və pis rəftarla bağlı dözümsüzlük nümayiş etdirməsi barədə bəyanatların verilməsi ölkəmizin bu cür hallara qarşı mübarizədə əzmkarlığını göstərir.

Avropada işgəncə və pis rəftar hallarına qarşı mübarizə sahəsində vəziyyətin təhlili və beynəlxalq təcrübə onu göstərir ki, bu problem Avropa məkanında aktual olaraq qalmaqdadır. Beynəlxalq təşkilatların hesabatlarından da aydın görünür ki, bu gün Avropada, hətta inkişaf etmiş bəzi dövlətlərdə azadlıqdan məhrumetmə yerlərində pis rəftar halları mövcuddur.

Belə ki, Avropa Şurasının 2014-cü ilin mayında Vyanada keçirilmiş 124-cü Nazirlər sessiyasında təqdim olunmuş "Avropada demokratiya, insan hüquqları və qanunun aliliyinin vəziyyəti" adlı hesabatda Avropa İttifaqı üzv ölkələrinin də daxil olduğu Avropa Şurası məkanında 30 ölkə həbsxanalarda saxlama şəraiti və sıxlıq; 23 ölkədə hüquq-mühafizə orqanları tərəfindən pis rəftar; 20 ölkədə ədliyyə sisteminin neqativ fəaliyyəti; və nəhayət 20 ölkədə miqrant və sığınacaq axtaranların hüquqlarının təmin edilməsində çatışmazlıqlar olduğu açıq şəkildə ifadə edilmişdir.

Göründüyü kimi, Avropa İttifaqı üzv ölkələrində qeydə alınmış ciddi problemlərdən biri saxlama yerlərində mövcud şərait, xüsusilə də bir sıra ölkələrdə həbsxanalarda tələb olunandan daha artıq məhbusun saxlanmasıdır. İşgəncələrə qarşı Avropa Komitəsinin müvafiq hesabatlarına əsasən, sözügedən problem xüsusilə Belçika, Fransa və Böyük Britaniya kimi ölkələrdə özünü göstərmişdir. Təsadüfi deyil ki, Belçika həbsxanalarında işçi heyət tərəfindən vaxtaşırı edilən tətillərin məhkumların dözülməz şəraitdə saxlanılmasına, tibbi, ərzaq və digər təminatlarının kəskin pisləşməsinə və digər neqativ hallara gətirib çıxarması ilə bağlı İşgəncələrə qarşı Avropa Komitəsi dərin narahatlığını bildirmiş və bu ölkəyə münasibətdə bəyanat qəbul etmişdir. Bununla yanaşı, CPT, BMT-nin Universal Dövrü İcmalı və Avropa İnsan Hüquqları Komissarının hesabatlarında Avstriya, Polşa, Yunanıstan, Latviya, Litva kimi ölkələrdə saxlama yerlərində polis tərəfindən pis rəftar hallarının da aşkar olunduğu qeyd edilir.

Beynəlxalq təşkilatların hesabatlarında hətta Belçika, Fransa kimi bir sıra ölkələrdə miqrant və sığınacaq axtaran insanların sosial hüquqlarının, o cümlədən tibbi yardımla təminində çətinliklərin olduğu, Yunanıstanda onlara qarşı hücum faktlarının müşahidə edildiyi, Niderland və Maltada hüquq-mühafizə orqanları tərəfindən pis rəftar, habelə qeyri-insani və tələb olunandan artıq müddətdə saxlanılmaları kimi hallarla üzləşdikləri yer almışdır.

Avropada belə neqativ tendensiyaların mövcudluğu bir daha onu göstərir ki, işgəncə və pis rəftar hallarına qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, birgə səylərin və təşəbbüslərin dəstəklənməsi, yaxşı təcrübələrin öyrənilib tətbiq edilməsi labüddür.

Eyni zamanda, azadlıqdan məhrum etmə yerlərinin, o cümlədən penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, işçi heyətin peşəkarlığının artırılması, məhkumların pis vərdişlərdən uzaq durması üçün onların islah prosesinin daha da gücləndirilməsi, müxtəlif peşə ixtisaslarına yiyələnməsi, yeni istehsalat sahələrinin yaradılması, bütövlükdə həqiqi islah olunaraq layiqli vətəndaş kimi cəmiyyətə qayıdışı istiqamətində məqsədyönlü tədbirlərin görülməsi də olduqca əhəmiyyətlidir. Çünki belə olan halda pis rəftardan söhbət gedə bilməz.

Azərbaycan da bu prosesə öz töhfəsini verməyə hazırdır. Ona görə ki, ölkəmizdə insan hüquqlarının təmin olunmasına dövlət səviyyəsində ciddi münasibət bəslənilir, işgəncə və pis rəftarın digər hallarına qarşı qəti dözümsüzlük nümayiş etdirilir. Belə bir yanaşma isə ölkəmizin müəyyən inkişaf prosesində və ya hansısa öhdəliklərdən irəli gələn vəzifələrin icrası ilə əlaqədar formalaşmamışdır. Əksinə, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən mütərəqqi hüquqi islahatların qayəsini məhz insan hüquqlarının etibarlı təminatı, yüksək vətəndaş məmnunluğu, humanist yanaşma təşkil edir və bu sahədə mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən İşgəncələrə qarşı Avropa Komitəsi ilə əməkdaşlıq şəraitində səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.

# Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının iclası keçirilib





**Martın 3-də Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının iclası keçirilib.**

Tədbir iştirakçıları Fəxri Xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Əvvəlcə Ümumi və İxtisaslaşmış Məhkəmə Hakimləri Assosiasiyalarının ümumi yığıncaqları keçirilib.

Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosiasiyasının) ötən dövrdəki fəaliyyətinə həsr olunmuş yığıncaqda birliyin sədri, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov məruzə ilə çıxış edib.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın stabil inkişafından, müxtəlif sahələrdə qazanılan uğurlardan danışan birliyin sədri Ə.Cəfərov dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatlarının müsbət nəticələrini qeyd edib, Azərbaycanda cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı qanunvericilikdə edilən dəyişiklikləri, cəzaların icrası üzrə idarəetmənin və praktiki fəaliyyətin təkmilləşdirilməsi sahəsində görülən işləri, bu günlərdə isə vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında ölkə Prezidentinin imzaladığı Sərəncamın əhəmiyyətini vurğulayıb.

Bildirilib ki, ölkəmizin ədliyyə və məhkəmə sistemində aparılan mütərəqqi islahatlar beynəlxalq qurumlar tərəfindən təqdir olunur. Avropa Şurası, Dünya Bankı və digər nüfuzlu beynəlxalq təşkilatlar bu islahatlara yüksək qiymət verərək, əldə etdiyimiz nəticələri Avropa dövlətlərinə qabaqcıl nümunə kimi tövsiyə edirlər. Ötən il məhkəmə sistemindəki nailiyyətlərinə görə ölkəmiz Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olub, Dünya Bankı ölkəmizdə ədliyyə sahəsində həyata keçirdiyi layihəni ən uğurlu kimi qiymətləndirərək müasir məhkəmə infrastrukturunun yaradılması və vətəndaşlara keyfiyyətli xidmətlərin göstərilməsi sahəsində innovasiyalara görə nominasiyaların qalibi elan edib.

Yığıncaqda həmçinin, təşkilati məsələlərə baxılıb, yeni tərkibdə icra orqanlarının seçkisi keçirilib, birliyə yeni üzvlər qəbul edilib, Ələddin Cəfərov birliyin sədri seçilib.

İxtisaslaşmış Məhkəmə Hakimləri Assosiasiyanın keçirilmiş ümumi yığıncağında isə qurumun sədri, Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış edərək, ötən dövrdə Assosiasiyanın fəaliyyətindən bəhs edib, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edən Azərbaycanda qazanılan sosial-iqtisadi uğurlardan danışıb, məhkəmə sistemində aparılan mütərəqqi islahatların konkret nəticələrini vurğulayıb.

Dövlət başçısının tapşırıqları əsasında ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi istiqamətində görülən ardıcıl və məqsədyönlü tədbirlər qeyd edilib. Məhkəmə-Hüquq Şurasının təşəbbüsü ilə yeni məhkəmələrin yaradılması və fəaliyyətinin təşkili, son illər ərzində Assosiasiyanın beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndirilməsi, qabaqcıl ölkələrin məhkəmə təcrübəsinin öyrənilməsi, hakimlərin sayının artırılması, onların iş şəraitinin yaxşılaşdırılması, yeni məhkəmə binalarının tikintisi üzrə görülən işlər barədə məlumat verilib.

Tədbirdə Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyinin idarə heyətinin yeni tərkibi seçilib.

Sonra tədbir Ümumi və İxtisaslaşmış Məhkəmə Hakimləri ictimai birliklərinin birgə təmsil olunduqları Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının iclasında davam etdirilərək ölkədə aparılan məhkəmə-hüquq islahatları və məhkəmə fəaliyyətinin aktual məsələləri mövzusunda məruzələrlə çıxışlar dinlənilib.

İclasda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri, Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsində daimi nümayəndəsi Çingiz Əsgərov "İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi", Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifov "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında 20 oktyabr 2017-ci il tarixli Qanunun məhkəmələr tərəfindən tətbiqi təcrübəsi", Məhkəmənin hakimləri Əsəd Mirzəliyev "Mülki və İnzibati Prosessual məcəllələrdə, Vəkillər və vəkillik fəaliyyəti haqqında qanunda edilən dəyişikliklərin vətəndaş hüquqlarının müdafiəsinə təsiri", Xəqani Məmmədov "İnzibati icraat qaydasında baxılan işlər üzrə bəzi məsələlər barəsində", Azərbaycan İnqilab Nəsirov "Hərbi məhkəmələr tərəfindən işlərə baxılan zaman yol verilən nöqsanlar", Gəncə Apellyasiya Məhkəməsinin sədri Tapdıq Mahmudov "Təqsirləndirilən şəxslər barəsində həbs və ev dustaqlığı qətimkan tədbiri seçilərkən, habelə müddətlər uzadılarkən nəzərə alınmalı zəruri olan hallar" və digər mövzularda məruzələr edilib, təcrübə və fikir mübadiləsi aparılıb.

Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının iclasında Nizami Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov ittifaqın sədri, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi isə sədr müavini seçilib.

# Hakimlərin Seçki Komitəsinin məlumatı

Mətbuatda xəbər verildiyi kimi test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçərək 1 il müddətində davam edən tədris kursunu, o cümlədən məhkəmələrdə stajkeçməni başa vurmuş 125 nəfər hakimliyə namizədin peşə hazırlığının yoxlanılması məqsədilə şəffaf prosedurlar əsasında yazılı imtahan keçirilib.

İmtahan zamanı namizədlər məhkəmə qərarlarının layihələrini tərtib etmək bacarıqlarını nümayiş etdiriblər. İmtahan nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən ikiqat üsulla yoxlanılıb və 123 nəfər hakimliyə namizəd tədrisin yekunları üzrə şifahi imtahana buraxılıblar.

# Ədliyyə Akademiyasının məlumatları

**Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə mediasiya haqqında qanunun layihəsinin hazırlanması və Mediasiya Şurasının yaradılması nəzərdə tutulub.**

Ölkəmiz üçün yeni olan mediasiya institutunun yaradılması ilə bağlı Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində birgə layihə təşviq olunur.

"Azərbaycanda mediasiya sisteminin Avropa İttifaqının qabaqcıl təcrübələrinə uyğun müasirləşdirilməsi yolu ilə 2016-cı il üzrə İllik Fəaliyyət Proqramının həyata keçirilməsi üçün hazırlıq işlərində Azərbaycan hökumətinə dəstək göstərilməsi" adlı layihənin icrası çərçivəsində martın 1-də Avropa İttifaqının təşkilatçılığı ilə "Holiday İnn" mehmanxanasında Milli mediasiya üzrə məlumatlılığın artırılması mövzusunda seminar keçirilib.

Seminarda hakimlər, vəkillər, ədliyyə qulluqçuları, müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Təlimin açılışında Avropa İttifaqının Azərbaycandakı səfir Kestutis Yankauskas çıxış edərək əməkdaşlığın inkişaf istiqamətləri, birgə keçirilən layihələr barədə məlumat verib.

Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov Azərbaycanda mediasiya institunun tətbiqindən, mediasiyanın verəcəyi töhfələr və bu sahədə görülmüş işlərdən danışıb.

Seminarda milli və beynəlxalq ekspertlərin Azərbaycanda mediasiyanın inkişafı üzrə ölkə ehtiyaclarının qiymətləndirilməsi hesabatının ilkin nəticələrini dinlənilib, mediasiyaya giriş, onun metodları və faydaları, eləcə də ölkəmizdə mediasiyanın inkişafı strategiyası kimi məsələlər müzakirə edilib.



Dövlət başçısının penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsinə dair 10.02.2017-ci il tarixli Sərəncamının icrası çərçivəsində Probasiya xidmətinin əməkdaşlarının peşəkarlıqlarının artırılması məqsədilə Ədliyyə Akademiyası tərəfindən ixtisasartırma kursları, seminarlar və təlimlər keçirilir.

Cari ilin martında Gəncə və Şəki şəhərlərində Avropa İttifaqı ilə birgə həyata keçirilən "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" adlı layihə çərçivəsində probasiya üzrə icra məmurları üçün "İctimai işlər növündə cəzanın təşkili və icrası" mövzusunda seminarlar keçirilib.

Tədbirlərdə ölkəmizdə və Avropada ictimai işlər növündə cəza və inzibati tənbehin icrasının müqayisəli təhlili və bu sahədə mövcud olan problemlər müzakirə olunub, Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəis müavini Musa Hümbətov, Avropa Probasiya Konfederasiyasının beynəlxalq səfiri və digər şəxslər tərəfindən "Azərbaycan Respublikasında ictimai işlər növündə cəza və inzibati tənbehin icrasının təşkili", "Avropada ictimai işin təşkili və icrası" və s. mövzular üzrə mühazirələr oxunub.

Eyni zamanda, Ədliyyə Akademiyasının Kompüter təlim mərkəzində "Elektron icra sistemindən istifadə qaydaları" mövzusunda təlimlər keçirilib. Təlimlərdə elektron icra sisteminin tətbiqi, kompüterdən istifadə bacarıqlarının inkişaf etdirilməsi, borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması mövzuları üzrə mühazirələr dinlənilib.

Bütövlükdə tədbirlərdə nazirliyin İcra baş idarəsinin, Probasiya xidmətinin və müvafiq yerli probasiya və icra qurumlarının 100-dən çox əməkdaşı dinləyici qismində iştirak edib, maraqlı diskussiyalar keçirilərək fikir mübadiləsi aparılıb, iştirakçıların sualları ətraflı cavablandırılıb.

Ədliyyə Akademiyası tərəfindən, həmçinin məhkəmə aparatı işçilərinin ixtisaslarının artırılması diqqətdə saxlanılır. Bu məqsədlə 50-ə yaxın birinci instansiya məhkəmələrinin aparatlarının əməkdaşları üçün "Dövlət qulluğu haqqında qanunun tətbiqinin bəzi məsələləri" və "Məhkəmələrdə arxiv işinin təşkili və ünsiyyət psixologiyası" mövzularında təlimlər keçirilib.

Təlimlərdə qulluğa qəbul proseduru, stajorluq və sınaq keçmə, dövlət qulluqçusunun hüquq və vəzifələri, dövlət orqanlarının, inzibati və yardımçı vəzifələrin təsnifatı, başqa vəzifəyə keçirilmə, vəzifədə irəli çəkilmə, həvəsləndirmə və intizam tədbirlərinin tətbiqi, ixtisas dərəcələrinin verilməsi, məzuniyyət və ezamiyyələrin rəsmiləşdirilməsi, qulluqda olmanın yaş həddi, dövlət qulluğuna xitam verilməsi, etik davranış qaydaları, məhkəmələrdə arxiv işinin təşkili, vətəndaşların qəbulu, ünsiyyət psixologiyası mövzularında mühazirələr dinlənilib.

Həmçinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" ölkə Prezidentinin 16 may 2017-ci il tarixli Sərəncamına uyğun olaraq Cümhuriyyətin 100 illik tarixi mövzusunda mühazirə təlim proqramına daxil edilərək tədris olunub.



Ədliyyə Akademiyasında ədliyyə orqanlarında könüllü kimi fəaliyyətə cəlb olunmuş şəxslər üçün də təlim keçirilib. 10 nəfər könüllünün iştirak etdiyi təlimdə Azərbaycan ədliyyəsinin tarixi, Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, açıq hökumətin təşviqi, elektron xidmətlərin tətbiqi, kargüzarlıq işinin təşkili və digər aktual mövzular tədris olunub.

Eyni zamanda, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik tarixi", "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi" haqqında mövzular üzrə mühazirələr oxunub.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür

**Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılmasına, onlara metodiki köməkliyin gücləndirilməsinə, bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsinə daim xüsusi diqqət yetirilir, bu məqsədlə Ədliyyə Akademiyasının, regional ədliyyə idarələrinin imkanlarından istifadə olunmaqla mütəmadi təlimlər, seminar-müşavirələr təşkil edilir.**

Cari ilin martında İmişli regional ədliyyə idarəsi tərəfindən Biləsuvar rayonunda və Horadiz şəhərində, Lənkəran regional ədliyyə idarəsi tərəfindən isə Masallı rayonunda bələdiyyə nümayəndələrinin maarifləndirilməsi məqsədilə seminar-müşavirələr keçirilib.

Tədbirlərdə bələdiyyə üzvlərinin və qulluqçularının etik davranış qaydaları, bələdiyyə aktlarının qəbulu və icrası, nağdsız hesablaşmalar və onların məqsədi, bələdiyyə torpaqlarının idarə edilməsinin əsasları, onların istifadəsinə və mühafizəsinə nəzarətin xüsusiyyətləri, "Vətəndaşların müraciətləri haqqında" Qanundan irəli gələn vəzifələr və digər mövzular üzrə məruzələr dinlənilib.



Eyni zamanda, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən işlərdən danışılaraq qarşıda duran vəzifələr müzakirə olunub, nöqsan və qanun pozuntularına yol verilməməsi ilə bağlı müvafiq tövsiyələr verilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Ədliyyə işçiləri internat evlərinin sakinlərini sevindiriblər



**Ədliyyə Nazirliyi tərəfindən Novruz Bayramı münasibətilə paytaxtın Saray qəsəbəsində yerləşən 2 saylı və Xəzər rayonunda yerləşən 3 saylı əqli və fiziki qüsurlu uşaqlar üçün nəzərdə tutulan, habelə Mərdəkan qəsəbəsində yerləşən valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat evlərində bayram şənliyi təşkil edilib.**

Nazirliyin Birləşmiş Həmkarlar İttifaqının xətti ilə keçirilən tədbirdə ədliyyə işçiləri uşaqların qayğıları ilə maraqlanıb, onları əlamətdar bayram münasibətilə təbrik edib, xoşbəxtlik və firavan həyat arzulayıblar.

Nazirliyin nümayəndələri əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət inkişafı kursunun ölkə həyatının bütün sahələrini əhatə etdiyini, cəmiyyətimizin kövrək təbəqəsi olan uşaqlara hər zaman yüksək diqqət və qayğı ilə yanaşıldığını, onların problemlərinin həlli istiqamətində konkret addımların atıldığını vurğulayıblar.

Həmçinin, xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsi və reabilitasiyası, müasir infrastrukturların yaradılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın nəcib və xeyirxah fəaliyyəti qeyd olunub.

Musiqili-əyləncəli proqramla davam edən şənlikdə ədliyyə işçiləri tərəfindən uşaqlara bayram hədiyyələri, müxtəlif oyuncaqlar təqdim edilib.

İnternat evlərinin rəhbərliyi daim dövlət qayğısı ilə əhatə olunan uşaqlar üçün belə bir tədbirin təşkil olunmasına görə Ədliyyə Nazirliyinə öz minnətdarlığını ifadə edib.

Novruz şənliyi uşaqların böyük sevincinə səbəb olub.

# Azərbaycanın dövlətçilik tarixində Xalq Cümhuriyyətinin yeri

**Müsəlman Şərqində ilk parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, o dövrdə öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi.**

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Cənubi Qafqazda baş verən hadisələr mövcud siyasi şəraitə ciddi təsir göstərirdi. Rusiya bolşevizminin dayağına çevrilməkdə olan Bakı şəhəri və Cənubi Qafqazın qalan ərazisi 1917-ci ilin noyabrın 11-də Tiflisdə keçirilən müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina edərək Müstəqil Zaqafqaziya hökuməti yaratmaq haqqında qərar qəbul etdilər. Noyabr ayının 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Onun tərkibinə Azərbaycandan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlik-aslanov daxil oldular.

Həmin dövrdə Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər isə öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.

Mart ayının 30-da Lənkərana yola düşmək ərəfəsində şəxsi heyəti müsəlmanlardan ibarət olan "Evelina" gəmisinin bolşeviklər tərəfindən tərksilah edilməsinə cavab olaraq şəhər məscidlərində toplanan müsəlman əhalisi müsadirə edilmiş silahların qaytarılmasını tələb etdi. Bolşeviklər bu tələbin yerinə yetiriləcəyini vəd etsələr də, həmin gün axşam Bakıda ilk atəşlər açıldı. Azərbaycanlılara qarşı Mart soyqırımı başlanana qədər özlərinin bitərəfliyini elan etmiş "Daşnaksütyun" və Erməni Milli Şurası sonradan Bakı Sovetini müdafiə etdi. Ermənilərin fitnəsi ilə hərbi gəmilər şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdular. Martın 31-də kütləvi qırğının qarşısını almaq məqsədilə Sovetin İcraiyyə Komitəsi ilə danışıqlara başlanılsa da, şəhərin azərbaycanlılar yaşayan rayonları erməni əsgərləri tərəfindən tamamilə məhv edilmiş və dinc əhaliyə qarşı əsl soyqırım törədilmişdi.

Azərbaycanda mart soyqırımını törətməklə erməni bolşevik qüvvələri daha böyük məqsədlər güdür, Azərbaycanı tamamilə işğal etmək istəyirdilər. Lakin 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsinin başlanması düşmənlərin bu planlarını pozdu.

Belə ki, 1918-ci ilin fevralın 23-də Cənubi Qafqazın Ali hakimiyyət orqanı Zaqafqaziya Seymi yaradıldı. Lakin Seymin tərkibinə daxil olan Azərbaycan, gürcü və erməni fraksiyaları arasında daxili və xarici siyasətin əsas məsələlərinə münasibətdə ciddi fikir ixtilaflarının olduğu aşkara çıxdı. 1918-ci ilin aprelin 22-də Zaqafqaziyanın müstəqil federativ respublika elan edilməsi bu ziddiyyətləri aradan qaldırmadı. Fraksiyalar arasında getdikcə güclənən çəkişmələr son nəticədə Seymin fəaliyyətini iflic vəziyyətinə saldı. Belə bir şəraitdə gürcülər Zaqafqaziya Seyminin tərkibindən çıxıb Gürcüstanın dövlət müstəqilliyini elan etmək qərarına gəldilər. 1918-ci il may ayının 26-da Zaqafqaziya Seymi özünün buraxıldığını elan etdi və həmin gün Gürcüstanın müstəqilliyi bəyan edildi. May ayının 27-də Seymin müsəlman fraksiyası Azərbaycan Milli Şurasını yaratdı. Azərbaycanın dövlət müstəqilliyinin elan olunması haqqında qərar qəbul edildi. 1918-ci ilin may ayının 28-də Milli Şuranın katibi Həsən bəy Ağayev tərəfindən oxunan İstiqlal Bəyannaməsində deyilirdi:

1. Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir. Zaqafqaziyanın cənub və şərq hissəsindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) beynəlxalq birliyin bütün üzvləri, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

4. AXC öz sərhədləri daxilində millətindən,

dinindən, ictimai vəziyyətindən və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

5. AXC onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

6. Müəssislər Məclisi çağırılana kimi bütün Azərbaycanın idarəsi başında xalq səsverməsi yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətinin tərkibini də təsdiq etdi. Yenicə yaradılmış Cümhuriyyət hökumətinin başçısı Fətəli xan Xoyski 1918-ci il may ayının 30-da bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərərək, Azərbaycanın müstəqil dövlət elan edildiyini bəyan etdi. Bir çox ölkələrə göndərilən həmin radioqramda bildirilirdi ki, Cümhuriyyət hökuməti müvəqqəti olaraq Yelizavetpolda (indiki Gəncə) fəaliyyət göstərəcəkdir. Bundan əlavə xarici işlər naziri Məmməd Həsən Hacınski Türkiyənin xarici işlər naziri Əhməd Nəsimi bəyə məxfi teleqramla müraciət etdi ki, Avropa dövlətlərinin paytaxtında olan türk səfirlikləri Azərbaycanın həmin ölkələrdəki nümayəndəlikləri funksiyasını da öz üzərlərinə götürsünlər.

Cümhuriyyət xadimlərinin çox böyük tarixi xidməti bu idi ki, onlar ölkənin şimalında Rusiya işğalından sonrakı dövrdə unutdurulmuş müqəddəs Azərbaycan möhürünü xalqa qaytardılar. Xalqın dirçəldilən yeni dövləti dünyanın siyasət meydanına Azərbaycan adı ilə qədəm qoydu. 1918-ci il iyun ayının 16-da Milli Şura və hökumət özünün fəaliyyət mərkəzini Tiflisdən Gəncəyə köçürdü.

Azərbaycan Milli Şurası çətinliklə əldə olunmuş istiqlalın itirilməsindən ehtiyat edərək qərara aldı ki, qısa müddət ərzində Müəssislər Məclisi çağırılmalı, o vaxta qədər isə F.X.Xoyski hakimiyyəti öz əlində saxlamalı və heç kimə güzəştə getməməlidir. Müvəqqəti hökumət 6 aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. Azərbaycan Milli Şurasının 1918-ci il may ayının 27-dən iyun ayının 17-dək davam edən 20 günlük ilk fəaliyyəti dövründə cəmi 7 iclası keçirildi və bu iclaslarda başlıca olaraq, 2 mühüm qərar qəbul edildi:

1. Azərbaycanın istiqlalı elan olundu və İstiqlal Bəyannaməsi qəbul edildi;

2. Fətəli Xan Xoyski başda olmaqla, ilk Azərbaycan hökuməti formalaşdırıldı.

1918-ci il iyun ayının 17-də hakimiyyətə gələn F.X.Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti beynəlxalq və daxili aləmdə çətinliklər qarşısında olsa da, soyqırımı taleyini yaşayan Azərbaycan xalqını tarixin qanlı burulğanından çıxartmaq mühüm tədbirlər həyata keçirildi, müstəqil Azərbaycanın dövlət quruculuğuna başlanıldı, qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq Azərbaycanın dövlət rəmzi kimi qəbul olundu. İyunun 26-da müsəlman hərbi korpusu əlahiddə Azərbaycan Korpusuna çevrildi və korpus hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da faktiki olaraq, Azərbaycan Silahlı Qüvvələrinin yaradılması demək idi. Növbəti gün isə Azərbaycan-türk dili dövlət dili elan olundu. Məktəblər milliləşdirildi, yeni müəllim kursları və təhsil ocaqları açıldı. Yelizavetpol və Qaryagenin tarixi adları bərpa olunaraq, yenidən Gəncə və Cəbrayıl adlandırıldı.

İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya birinci Dünya müharibəsi dövründə bütün Cənubi Qafqaz ərazisində Türk müsəlman əhaliyə qarşı törədilən soyqırımı vəhşiliyini və onların əmlakının talan olunması məsələsini araşdırıb cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Hökumətin bu qərarı ilə əslində Azərbaycanlılara qarşı soyqırımlara hüquqi qiymət verilməsinin əsası qoyuldu. Bundan əlavə hökumətin nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün də bir sıra mühüm tədbirlər görüldü. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar, 23-də isə Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında qanun qəbul edildi.

1918-ci il sentyabr ayının 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu və Azərbaycanın xalq könüllü dəstələrinin birləşmiş qüvvələri Bakını azad etdi. Sentyabr ayının 17-də F.X.Xoyski kabinetinin təşkilindən 3 ay sonra Cümhuriyyət hökuməti Bakıya köçdü və Bakı paytaxt elan olundu. Noyabrın 9-da AXC-nin iyunun 21-də qəbul etdiyi dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla

əvəz olundu. Azərbaycan hökuməti bu tədbirləri olduqca mürəkkəb bir şəraitdə həyata keçirirdi. Milli Şura beş aylıq fasilədən sonra noyabr ayının 19-da "Azərbaycan parlamentinin yaradılması haqqında" qanun qəbul etdi. Qanunda göstərilirdi ki, ölkə əhalisinin milli tərkibinə müvafiq olaraq, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri Parlamentdə təmsil olunmalıdırlar. Beləliklə, 1918-ci il dekabr ayının 7-də Azərbaycan Parlamenti öz işinə başladı. Əlimərdan bəy Topçubaşov Azərbaycanın ilk parlamentinin sədri seçildi.

Azərbaycan Parlamenti bütün müsəlman şərqində o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi. Birinci iclas zamanı F.X.Xoyski müvəqqəti hökumətin istefası ilə bütün hakimiyyətin parlamentə keçməsini elan etdi. Yeni hökumətin təşkili yenidən F.X.Xoyskiyə tapşırıldı. Dekabr ayının 26-da koalisiya əsasında təşkil olunmuş yeni Nazirlər Kabinetinin tərkibi elan edildi. Yeni Kabinet partiya prinsipi üzrə deyil, parlament fraksiyalarının hökumət başçısının proqramına etimad göstərməsi əsasında təşkil edilmişdir.

1919-cu ilin yanvar-fevral aylarında keçirilən Parlament iclaslarında F.X.Xoyski Hökuməti kəskin surətdə tənqid edildi və haqsız tənqidlərlə barışmayan F.X.Xoyski Hökumətin istefası barədə Parlamentə məktub göndərdi. Parlamentin fevralın 25-də keçirilmiş iclasında Xoyski Hökumətinin istefası qəbul olundu və yeni Hökumətin təşkilinə qədər onlardan öz fəaliyyətlərini davam etdirmək xahiş olundu.

1919-cu il mart ayında F.X.Xoyski hökuməti istefa verdi və aprelin 14-də yeni yaradılan hökumətə Müsavat Partiyasının liderlərindən biri Nəsib bəy Yusifbəyli başçılıq etdi. Yeni hökumətin də proqramının əsasını Azərbaycan dövlət müstəqilliyinin böyük dövlətlər tərəfindən tanınması, ölkənin ərazi bütövlüyünün təmin olunması və qonşu dövlətlərlə sıx əlaqələrin yaradılması təşkil edirdi.

Dövlət quruculuğunda müsbət nəticələrlə yanaşı, çoxlu nöqsanlar da qabarıq şəkildə öz əksini tapırdı. Siyasi çəkişmələr, bəzi partiyaların və siyasi qüvvələrin barışmazlıq mövqeyindən çıxış etmələri vahid platforma əsasında dövlət strukturunun formalaşmasına maneçilik törədirdi. Parlamentin tövsiyəsi ilə müdafiə sahəsində fövqəladə səlahiyyətə malik olan xüsusi orqan - Dövlət Müdafiə Komitəsi yaradıldı.

1919-cu ilin ikinci yarısında Azərbaycan Parlamenti ölkə həyatının demokratikləşdirilməsinə təkan verən bir sıra qanunlar qəbul etdi. İyul ayının 21-də Parlament "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"ni təsdiq etdi. Avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul olundu, oktyabrın 30-da isə "Mətbuat haqqında Nizamnamə" imzalandı.

1920-ci ilin əvvəllərində ölkənin daxili və siyasi həyatı xeyli sabitləşdi. Qısa müddətdə normal fəaliyyət göstərən dövlət aparatı və ordu yaradıldı. Xalq maarifi sahəsində ciddi nailiyyətlər əldə olundu. 1920-ci il yanvar ayının 11-də Paris sülh konfransının Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanınması haqqında qərar qəbul etdi. Lakin Azərbaycanın daxili siyasi həyatında yaranan sabitlik uzun sürmədi. Ölkənin başı üstünü bolşevik təhlükəsi almışdı. 1920-ci ilin fevralında Azərbaycan Kommunist Partiyasının birinci qurultayı işə başlayaraq Azərbaycanda dövlət çevrilişi xəttini əsas götürdü. Aprel ayında hökumət istefa verdi və yeni kabinetin təşkili M.Hacinskiyə tapşırılsa da, o, bunun mümkün olmadığı haqda parlamentə məlumat verdi.

Xarici təhlükə ilə yanaşı, aprel ayının əvvəllərində başlanan hökumət böhranı Azərbaycanda siyasi vəziyyətin daha da gərginləşməsinə səbəb oldu. 1920-ci ilin mart ayında daşnak quldur dəstələrinin Xankəndi qarnizonuna hücumu ilə başlanan Qarabağ qiyamını yatırtmaq üçün Azərbaycanın ordu hissələri təcili surətdə Barıdan Qarabağın dağlıq hissəsinə yeridildi. Aprel ayında törədilmiş işğal ərəfəsində yerli bolşeviklər daşnak qiyamından istifadə edərək, ölkənin daxilində Azərbaycan hökumətinə qarşı düşmənçilik təbliğatını daha da gücləndirdilər. Onlar ölkədə qayda-qanunun bərpası məqsədilə Rusiyaya müraciət etməyə və hərbi yardım üçün XI Qırmızı Ordunu dəvət etməyə çağırırdılar. Bakıya hücum planı Lenin tərəfindən artıq hazırlanmışdır və aprel ayının 27-də gecə XI Qızıl Ordu Azərbaycanın sərhədlərini keçdilər. Azərbaycanın hərbi qüvvələri əsasən, qərb cəbhəsində olduğu üçün Qırmızı Orduya qarşı ciddi müqavimət göstərmək mümkün olmadı.

Sovet Ordusu Bakıya yaxınlaşan zaman yerli bolşeviklər hakimiyyəti təslim etmək barədə parlamentə ultimatum verdilər. Aprel ayının 27-də parlamentin sonuncu iclasında kəskin diskussiyalara baxmayaraq, hakimiyyətin Azərbaycan İnqilab Komitəsinə verilməsi barədə qərar çıxarıldı. Qərara əsasən, Azərbaycanın tam müstəqilliyinin qorunub saxlanması, yeni yaranan hökumətin müvəqqəti xarakter daşıması, məsul şəxslərdən başqa hökumət idarələrindəki köhnə qulluqçuların tutduğu vəzifədə qalması hökumət və parlament üzvlərinin həyat və əmlakının toxunulmazlığının təmin edilməsi, ordunun saxlanılması şərtlərinə və digər şərtlərlə hakimiyyət Azərbaycan bolşeviklərinə verildi.

1920-ci ilin aprel ayının 28-də Sovet Rusiyasının təcavüzü nəticəsində beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq dünya birliyi tərəfindən tanınmış suveren Azərbaycan dövləti süqut etdi.

Bütün müsəlman şərqində parlamentli demokratik respublika tipində ilk dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti xalq hakimiyyəti, insan hüquqları, millətlərin bərabərlik hüququ, söz və yığıncaq azadlığı kimi ictimai dəyərləri elan etmiş və əməli surətdə həyata keçirmişdir. 23 ay ərzində bir çox dövlət strukturları, eləcə də 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə Ədliyyə Nazirliyi yaradıldı və ilk ədliyyə naziri Xəlil bəy Xasməmmədov oldu.

Eyni zamanda, bu müddət ərzində ordu yaradıldı, Bakı Dövlət Universiteti təsis edildi, Azərbaycan dili dövlət dili elan edildi, təhsil sistemi milliləşdirildi, 8 saatlıq iş gününə keçirildi, vətəndaşlıq və Müəssislər Məclisinə seçkilər haqqında demokratik qanunlar qəbul olundu.

1920-ci il aprel ayının 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu və Azərbaycan xalqı 70 il boyunca sovet imperiyasından asılı şəraitdə yaşadı. İmperiyanın 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda törətdiyi qanlı faciə suverenliyi, azadlığı uğrunda ayağa qalxmış xalqın sonsuz hiddətinə səbəb oldu. Artıq Azərbaycan xalqı müstəqilliyini əldə etmək üçün geri çəkilmədən haqq səsini qaldırdı. Yanvar ayının 21-də Azərbaycanın Moskvadakı Nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev 20 yanvar faciəsinə siyasi qiymət verərək mərkəzin və Respublika rəhbərliyinin hüquqa, demokratiyaya zidd olan əməllərini ifşa etdi. Onun bu çıxışı heç yerdən köməyi olmayan xalqın qəlbində ümid işığı yandırdı. Ulu Öndərin bilavasitə təşəbbüsü ilə 1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikanın adından "sovet sosialist" sözləri götürüldü. Azərbaycanın üçrəngli bayrağı Muxtar Respublikanın dövlət bayrağı oldu. Yalnız bir neçə ay sonra 1991-ci il fevral ayının 5-də Azərbaycan Ali Soveti sessiyasının qərarı ilə Azərbaycan SSR Azərbaycan Respublikası adlandırıldı və üçrəngli bayraq Azərbaycanın dövlət bayrağı kimi təsdiq edildi.

1991-ci il oktyabr ayının 18-də Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı qəbul olundu və respublikamız müstəqilliyini bərpa etdikdən sonra 28 May - Respublika Günü kimi Azərbaycan xalqının tarixinə düşdü.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 ili tamam olur. Bu münasibətlə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən xüsusi sərəncamlar imzalanmış, o cümlədən 2018-ci il respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunaraq ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir. Dövlətimizin başçısı Cümhuriyyət tarixinə böyük fəxrlə yanaşdığını bildirərək deyir: "Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır... Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib... Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq".

**Gülgün ŞƏFİYEVA,**
**Ədliyyə Akademiyasının Elmi-Tədqiqat və məhkəmə presedenti şöbəsinin baş məsləhətçisi**
**I dərəcəli ədliyyə qulluqçusu**

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 9, N 8, maddə 598, N 9, maddə 668; 2007, N 4, maddə 320, N 5, maddə 446, N 7, maddə 712, N 11, maddə 1078; 2008, N 6, maddə 470, N 7, maddə 608; 2010, N 7, maddə 590; 2011, N 4, maddə 266, N 11, maddə 982; 2012, N 6, maddə 521; 2014, N 2, maddə 84; 2015-ci il, N 5, maddə 491) aşağıdakı məzmunda 73.9-cu maddə əlavə edilsin:

"73.9. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimin statusu Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakiminin statusuna bərabər tutulur və bu Qanunda, həmçinin digər normativ hüquqi aktlarda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi üçün nəzərdə tutulmuş təminatlar (bu Qanun 71-ci, 72-ci, 73.5-ci, 73.6-cı və 73.8-ci maddələrində nəzərdə tutulmuş təminatlar istisna olmaqla) İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimə də şamil edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 fevral 2018-ci il.*
*N 986-VQD*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 588-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12,

maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979; Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 847-VQD, 851-VQD nömrəli, 17 noyabr tarixli 857-VQD, 870-VQD, 874-VQD, 882-VQD nömrəli, 1 dekabr tarixli 898-VQD, 901-VQD, 913-VQD nömrəli və 15 dekabr tarixli 949-VQD nömrəli qanunları) 598.1.7-ci maddəsindən "monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 fevral 2018-ci il.*
*N 1002-VQD*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 1, maddə 1, N 3, maddə 131; 2002, N 12, maddə 693; 2003, N 1, maddə 16; 2004, N 1, maddə 10, N 4, maddə 199, N 5, maddə 321, N 8, maddə 597, N 11, maddə 884; 2005, N 6, maddələr 463, 475, N 10, maddə 874; 2006, N 5, maddə 386, N 6, maddə 479, N 8, maddə 657, N 11, maddə 927, N 12, maddələr 1005, 1014; 2007, N 2, maddə 83, N 5, maddələr 434, 436, N 7, maddə 711, N 10, maddə 934, N 11, maddələr 1049, 1074, 1078, N 12, maddələr 1213, 1219; 2008, N 3, maddə 153, N 5, maddələr 326, 341, N 6, maddələr 471, 481, N 7, maddə 602, N 8, maddə 699, N 10, maddə 881; 2009, N 2, maddə 54, N 5, maddə 311, N 6, maddə 403, N 10, maddə 771, N 11, maddə 878, N 12, maddə 964; 2010, N 4, maddə 276; 2011, N 2, maddə 71, N 3, maddə 165, N 6, maddə 463; 2012, N 5, maddə 413, N 10, maddə 945, N 11, maddə 1049; 2015, N 1, maddə 9, N 5, maddə 488, N 10, maddə 1100; 2016, N 8, maddə 1365, N 11, maddələr 1760, 1782, 1785; 2017, N 5, maddə 726, N 6, maddə 1054, N 7, maddə 1267, N 8, maddə 1513, N 11, maddə 1974, Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 824-VQD nömrəli, 29 dekabr tarixli 967-VQD və 968-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 23.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"23.1. Dövlət qulluqçusunun və onun ailə üzvlərinin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

2. 23.2-ci maddə üzrə:

2.1. birinci cümlədə "qulluğunda xidmət illərindən" sözləri "qulluğu vəzifəsində qulluq stajından" sözləri ilə əvəz edilsin;

2.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Dövlət qulluqçusuna "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilməsi üçün dövlət qulluğu vəzifəsində minimum 15 il qulluq stajı tələb olunur.".

3. 23.3-cü maddədə "qulluğunda xidmət illərinin minimum həddinə" sözləri "qulluğu vəzifəsində bu Qanunun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum qulluq stajına" sözləri ilə əvəz edilsin.

4. 23.5-ci maddə ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 mart 2018-ci il.*
*N 1025-VQD*

## ”Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 9, N 8, maddə 598, N 9, maddə 668; 2007, N 4, maddə 320, N 5, maddə 446, N 7, maddə 712, N 11, maddə 1078; 2008, N 6, maddə 470, N 7, maddə 608; 2010, N 7, maddə 590; 2011, N 4, maddə 266, N 11, maddə 982; 2012, N 6, maddə 521; 2014, N 2, maddə 84; 2015, N 5, maddə 491) 73.7-ci maddəsində "Pensiya yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş Konstitusiya Məhkəməsinin" sözləri "Konstitusiya Məhkəməsinin hakiminin," sözləri ilə əvəz edilsin:

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 mart 2018-ci il.*
*N 1027-VQD*

## ”Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alır:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N

4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 927-VQD nömrəli Qanunu) 109-cu maddəsinin beşinci hissəsində "Azı 5 il hakim işləmiş və pensiya yaşına çatmış və ya bu yaşa çatanadək əlil olmuş" sözləri "Hakimlərin," sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 mart 2018-ci il.*
*N 1028-VQD*

### ”Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 7, maddə 586; 2007, N 1, maddə 1, N 8, maddə 756, N 11, maddələr 1078, 1081; 2008, N 3, maddə 155, N 6, maddə 481, N 8, maddələr 694, 710; 2009, N 6, maddə 399, N 11, maddə 878; 2010, N 3, maddə 171, N 4, maddə 273, N 11, maddə 944; 2011, N 2, maddələr 71, 72; 2012, N 11, maddə 1040; 2015, N 10, maddə 1089; 2016, N 6, maddə 984; 2017, N 5, maddə 729; N 7, maddə 1252) aşağıdakı dəyişikliklər edilsin:

1. 23.8-ci maddədə "25 il qulluq etmiş işçilər" sözləri "35 il qulluq stajı olan ədliyyə işçiləri (xüsusi rütbələrdən məhrum edilmiş ədliyyə işçiləri istisna olmaqla)" sözləri ilə əvəz edilsin.
2. 23.11-ci maddədə "25" rəqəmləri "35" rəqəmləri ilə əvəz edilsin.
3. 39.4.1-ci maddədə "55" rəqəmləri "60" rəqəmləri ilə, "25" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin.
4. 39.4.2-ci maddədə "50" rəqəmləri "55" rəqəmləri ilə, "20" rəqəmləri "25" rəqəmləri ilə, "10 təqvim ilindən" sözləri "12 il 6 aydan" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 mart 2018-ci il.*
*N 1031-VQD*

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin "dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 674-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar

Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N2 (I kitab), maddə 202, N3, maddələr 397, 403, 429, N4, maddələr 631, 647, 654, N5, maddələr 835, 846, N6, maddələr 997, 1010, N7, maddələr 1247, 1249, N10, maddə 1608, N11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N1, maddə 21, N2, maddələr 139, 147, 152, 162, N3, maddələr 331, 344, N5, maddələr 698, 701, 734, 749, 754, N6, maddələr 1020, 1033, 1036, N7, maddələr 1273, 1296, 1297, 1299, N11, maddələr 1964, 1966, 1969, 1979; Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 847-VQD, 851-VQD nömrəli, 17 noyabr tarixli 857- VQD, 870-VQD, 874-VQD, 882-VQD nömrəli, 1 dekabr tarixli 898-VQD, 901-VQD, 913-VQD nömrəli, 15 dekabr tarixli 949-VQD nömrəli, 29 dekabr tarixli 969-VQD nömrəli və 2018-ci il 1 fevral tarixli 981-VQD və 984-VQD nömrəli qanunları) 516.0.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

516.0.1. müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmadan vətəndaşların təhsil almaq üçün xarici ölkələrin dini tədris müəssisələrinə göndərilməsinə, dini tədris müəssisələri tələbələrinin və müəllimlərinin, habelə din xadimlərinin və mütəxəssislərinin mübadiləsinə;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 mart 2018-ci il.*
*N 1038-VQD*

## Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülmüşdür. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olmuş, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilmişdir.

Bununla belə, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq məqsədi ilə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Bununla əlaqədar bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini, dövlət nəzarətinin gücləndirilməsini və görülən işlərin səmərəliliyinin artırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

1.1. elektron hökumət sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirsin;

1.2. dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək məqsədi ilə əlaqələndirici qurum funksiyalarını yerinə yetirsin;

1.3. "Elektron hökumət" portalının idarə olunmasını və fəaliyyətini təmin etsin və təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirlər görsün;

1.4. dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsini və elektron xidmətlərin göstərilməsini "elektron hökumət" portalı vasitəsilə təşkil etsin;

1.5. elektron xidmətlərin, o cümlədən dövlət-biznes (G2B - government to business), biznes-dövlət (B2G - business to government) elektron xidmətlərinin inkişafı ilə bağlı tədbirlər görsün;

1.6. "Dövlət informasiya ehtiyatları və sistem-

lərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və digər aidiyyəti qurumlarla birlikdə "Milli Məkan Məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.8. "Rəqəmsal hökumətə keçid üzrə Fəaliyyət Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.9. bu Fərman ilə verilmiş tapşırıqların icrası ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə hesabat versin.

2. Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan vəzifələrin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılsın.

3. "Elektron hökumət" portalı texniki-texnoloji infrastrukturu ilə birlikdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansından Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin balansına verilsin.

4. Müəyyən edilsin ki, bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir.

5. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

5.1. bu Fərmanın 3-cü hissəsində müəyyən edilən tapşırığın icrasını üç ay müddətində təmin etsin;

5.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin data mərkəzdə saxlanılmasının effektiv təşkili üçün tədbirlər görsün;

5.3. "Rəqəmsal hökumət"ə keçid prosesinin sürətləndirilməsi məqsədilə mövcud kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə ölkədə informasiya təhlükəsizliyi sahəsində mövcud vəziyyəti, o cümlədən qanunvericiliyi təhlil edərək, qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla müvafiq sahənin təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Vergilər Nazirliyi "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təklifləri əsasında "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin təşkili ilə bağlı maliyyə məsələlərini həll etsin.

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

9.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 mart 2018-ci il.*
*N1885*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 158-ci maddələrinin bəzi müddəalarına dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Rafael Qvaladze (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatının Elmi-Analitik sektorunun müdiri Mahir Məmmədovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Paşayevanın,

ekspert Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının baş müəllimi Elşad Nəsirovun,

mütəxəssislər Bakı Apellyasiya Məhkəməsinin hakimi İkram Şirinovun, Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü, vəkil Muxtar Mustafayevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 158-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinə, 25-ci maddəsinin I, III və V hissələrinə, 28-ci maddəsinin I və III hissələrinə, 29-cu maddəsinin II hissəsinə, 59-cu maddəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılması ilə bağlı Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - Mülki Prosessual Məcəllə) 157 və 158-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 13-cü maddəsinin I hissəsinə, 25-ci maddəsinin I, III və V hissələrinə, 28-ci maddəsinin I və III hissələrinə, 29-cu maddəsinin II hissəsinə, 59-cu maddəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuda Mülki Prosessual Məcəllənin 157 və 158-ci maddələri, iddianı təmin etmənin ləğv olunmasını nəzərdə tutan 162-ci maddəsi, iddianı

təmin etmək haqqındakı qərardaddan şikayət verilməsi qaydasını nəzərdə tutan 163-cü maddəsi barədə ətraflı məlumat verilmiş və qeyd edilmişdir ki, həmin maddələrin bəzən təcrübədə düzgün tətbiq edilməməsi fiziki və hüquqi şəxslərin bir sıra konstitusiya hüquqlarının pozulmasına səbəb olur. Sorğuverənin qənaətinə görə, yaranan ziddiyyətləri aradan qaldırmaq, onlara aydınlıq gətirmək, vahid məhkəmə təcrübəsini formalaşdırmaq, beləliklə də fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin daha səmərəli təmin edilməsi üçün məsələyə Konstitusiya Məhkəməsi tərəfindən hüquqi qiymət verilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusunda qaldırılan məsələlər vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün əhəmiyyət kəsb edərək insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğunun mahiyyətindən çıxış edərək, iddianın təmin edilməsi ilə bağlı mülki prosessual qanunvericiliyin bir sıra normalarının şərh edilməsini zəruri hesab edir.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, məhkəmə müdafiəsi hüququ əsas insan və vətəndaş hüquqları və azadlıqları sırasında olmaqla yanaşı, Konstitusiyada təsbit edilmiş digər hüquq və azadlıqların təminatı qismində çıxış edir (M.Hüseynovun şikayəti üzrə 2015-ci il 4 mart tarixli Qərar).

Məhkəmə müdafiəsi hüququnun məzmununa gəldikdə isə o, bir tərəfdən hər kəsin pozulmuş hüquqlarının və azadlıqlarının bərpası məqsədilə məhkəməyə müraciət etmək hüququnu, digər tərəfdən isə məhkəmələrin həmin müraciətlərə ağlabatan müddətdə baxmaq və onlara dair ədalətli qərar qəbul edərək, onların vaxtında icra edilməsi vəzifəsini müəyyən edir (Konstitusiya Məhkəməsi Plenumunun V.Ozerovun şikayəti üzrə 2011-ci il 15 aprel tarixli, C.İsmayılzadənin şikayəti üzrə 2014-cü il 6 iyun tarixli və "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.4-cü maddəsinin şərh edilməsinə dair" 2014-cü il 4 iyul tarixli Qərarları).

Qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrası məhkəməyə müraciət etmək hüququnun tərkib hissəsi olmaqla xüsusi önəm daşıyır. Belə ki, məhkəmə qərarının vaxtında və düzgün icra olunmaması bütövlükdə məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsini səmərəsiz və qəbul olunmuş qərarı əhəmiyyətsiz edir. Konstitusiya və beynəlxalq hüquq aktlarının tələblərinə görə ədalət mühakiməsi məhkəmə qərarlarının effektiv icrası nəticəsində hüquqların səmərəli şəkildə bərpa olunmasını təmin etməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7, 10, 24 və 26-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin bəzi müddəaları baxımından şərh edilməsinə dair" 2015-ci il 2 sentyabr tarixli Qərarı).

Konstitusiyanın tələblərinə əsaslanan Mülki Prosessual Məcəllənin 2.1-ci maddəsində qeyd edilmişdir ki, mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Azərbaycan Respublikasının Konstitusiyasından, qanunlarından və digər normativ hüquqi aktlarından irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır.

Mülki prosessual qanunvericilik qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrasının məcburiliyini müəyyən etməklə yanaşı, bəzi hallarda qəbul ediləcək məhkəmə aktlarının gələcəkdə icrasını təmin edən müvafiq tədbirlərin görülməsinin mümkünlüyünü də nəzərdə tutur. Belə tədbirlər sırasında iddianı təmin etmə tədbirləri xüsusi yer tutur.

İddianın təmin edilməsi institutu ədalət mühakiməsinin həyata keçirilməsinin mühüm elementlərindən biri olmaqla, məhkəmə qətnaməsinin gələcəkdə icrasının təminatı kimi çıxış edir.

İddia tələblərinin təmin edilməsinə olan tələbat mübahisələrin prosessual qaydada həll edilməyə başladığı dövrdən yaranmışdır. İddianın təmin

edilməsi məqsədilə Roma hüququ cavabdehdən mübahisənin mahiyyəti üzrə hakimin qərar qəbul etməsinə qədər məhkəməyə gəlməsi və iştirak etməsinə zaminlik edəcək şəxsi təqdim etməsini tələb edirdi. Bu cür zəmanətin olmaması cavabdehin şəxsən saxlanmasına gətirib çıxara bilərdi.

Sovet dövrünə qədər qüvvədə olan mülki qanunvericiliyə görə, iddianın təmin edilməsi üçün daşınar əmlak üzərində həbsqoyma, daşınmaz əmlak üzərinə qadağa tətbiq edilməsi, ölkəni tərk etməmək barədə iltizam, zaminlik və s. təminat növləri tətbiq edilə bilərdi.

Sosialist quruluşu bazar iqtisadiyyatının mövcudluğunu faktiki olaraq heçə endirdi və bu mülki məhkəmə icraatı üçün iddianın təmin edilməsi qaydalarının əhəmiyyətinin azaldılmasına gətirib çıxardı. Qeyd edilməlidir ki, 2000-ci ilə qədər qüvvədə olmuş Mülki Prosessual Məcəllənin tələblərinə görə, məhkəmə öz təşəbbüsü ilə iddianı təmin etmək üçün tədbirlər görə bilərdi.

Qüvvədə olan Mülki Prosessual Məcəllənin 157.1-ci maddəsinə əsasən, hakim işdə iştirak edən şəxsin ərizəsi ilə iddianı (bankın öhdəliklərinin könüllü restrukturizasiyası zamanı bank və (və ya) onun aktivləri ilə bağlı verilmiş iddia istisna olmaqla) təmin etmək üçün tədbirlər görə bilər. İddianın təmin edilməsinə prosesin istənilən mərhələsində yol verilir.

İddianın təmin edilməsi üzrə tədbirlər yalnız iddiaçının təşəbbüsü ilə və yalnız cavabdehə münasibətdə tətbiq edilmir. Buna görə də Mülki Prosessual Məcəllənin 157-ci maddəsində iddianın təmin edilməsi üçün tədbirlər görülməsinə dair ərizə ilə məhkəməyə müraciət etmək hüququna malik olan subyektlərin dairəsi "işdə iştirak edən şəxs" ifadəsi ilə müəyyən edilmişdir. İddianı təmin etmə tədbirinin mahiyyəti və prosessual təyinatı nəzərə alınmaqla buraya tərəflər, üçüncü şəxslər, ərizəçilər, maraqlı şəxslər, pozulmuş və ya barəsində mübahisə edilən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan ictimai təşkilatlar, dövlət orqanları və digər orqanlar daxildir (Mülki Prosessual Məcəllənin 46-cı maddəsi).

İddianı təmin etmək haqqında ərizə ayrıca yazılı sənəd kimi işi icraata qəbul etmiş məhkəməyə verilməlidir. Mülki Prosessual Məcəllənin 149.4-cü maddəsinə uyğun olaraq iddianı təmin etmə tədbirlərinin görülməsi haqqında vəsatət iddia ərizəsində də göstərilə bilər.

İddia ərizəsi məhkəmənin icraatına qəbul olunana qədər və işin mahiyyəti üzrə qətnamənin çıxarılmasından sonra iddianı təmin etmək üçün tədbirlərin görülməsinə yol verilmir. Bu qayda birinci instansiya məhkəməsinin qətnaməsindən apellyasiya şikayəti verildiyi hallara şamil olunmur.

Mülki Prosessual Məcəllənin 159.1-ci maddəsinə əsasən, iddianı təmin etmək haqqında ərizəyə mübahisəni həll edən hakim tərəfindən, daxil olduğu gündən sonra təxirə salınmadan baxılır. Maddənin mənasına görə, iddianı təmin etmək haqqında ərizəyə onun daxil olduğu gündən sonrakı iş günündən gec olmayaraq baxılır.

Işdə iştirak edən şəxslərə məlumat verilmədən ərizəyə baxılması (ex parte) iddianın təmin edilməsi üzrə tədbirin qarşı tərəf üçün "gözlənilməzlik effekti" yaratması kimi vacib xüsusiyyətə əsaslanır.

Konstitusiyanın 127-ci maddəsinin II hissəsinə görə, hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

İddianı təmin etmək üçün istənilən növ tədbir, tətbiq edildiyi şəxsə münasibətdə həmin şəxsin və digər şəxslərin hüquqlarını məhdudlaşdırır və bəzən onlara əsaslı dərəcədə zərər dəyməsinə səbəb olur. Buna görə Konstitusiyada təsbit olunmuş prosessual hüquq bərabərliyi prinsipindən çıxış edərək, işdə iştirak edən şəxs ərizədə iddianı təmin etmək üçün tədbirlərin görülməsi zərurətini kifayət qədər əsaslandırmalıdır. Lakin iddianı təmin etmək haqqında ərizə ilə müraciət edən şəxsin üzərinə sübutların təqdim edilməsi ilə bağlı həddindən artıq vəzifə də qoyulmamalıdır. Sadəcə olaraq, hakim belə bir qənaətə gəlməlidir ki, işdə iştirak edən şəxsin ərizəsində göstərilən dəlillər belə tədbirlərin görülməsi üçün əsasların olmamasını deyil, daha çox mövcudluğunu sübut edir. Belə sübutlara cavabdehin vicdansızlığına dəlalət edən istənilən məlumatları, məsələn tərəflərin yazışmalarını, cavabdehin prosesi aşkar surətdə uzatmağa yönəlmiş hərəkətlərini, əmlak və

maliyyə vəsaitlərini digər şəxslərin üzərinə rəsmiləşdirməyə yönəlmiş hərəkətlərini, əmlakın satışı barədə elanların verilməsini və s. aid etmək olar.

Mülki Prosessual Məcəllənin 157.2-ci maddəsinə görə, qətnamənin gələcəkdə icrasını təmin etmək məqsədi ilə iddianı təmin etmək barədə hakimin qəbul etdiyi qərardad müvəqqəti xarakter daşıyır və işi qabaqcadan mahiyyəti üzrə həll etmir.

Maddənin məzmunundan göründüyü kimi, iddianın təmin edilməsi mülki iş üzrə çıxarılacaq məhkəmə qətnaməsinin gələcəkdə icrasını təmin etmək məqsədilə tətbiq olunan prosessual tədbirdir. Buna görə də məhkəmə iddianın təmin edilməsinə dair ərizəyə baxarkən əmin olmalıdır ki, bu və ya digər iddia tədbirinin tətbiq edilməməsi gələcəkdə qətnamənin icrasını çətinləşdirə və ya qeyri-mümkün edə bilər.

Mülki Prosessual Məcəllənin 157.2-ci maddəsinin "müvəqqəti xarakter daşıyır" müddəası onu nəzərdə tutur ki, iddia rədd edildikdə məhkəmənin qəbul etdiyi iddianı təmin etmə tədbirləri qətnamə qanuni qüvvəyə minənə qədər saxlanılır. Lakin məhkəmə, qətnamə ilə eyni zamanda və ya qətnamə çıxarıldıqdan sonra iddianın təmin olunmasını ləğv etmək haqqında qərardad çıxara bilər (Mülki Prosessual Məcəllənin 162.3-cü maddəsi). İddia təmin edildikdə onun təmin edilməsi üçün görülmüş tədbirlər məhkəmə aktının icrasına qədər öz qüvvəsini saxlayır (Mülki Prosessual Məcəllənin 162.4-cü maddəsi).

Konstitusiya Məhkəməsi Plenumunun qənaətinə görə, iddianın təmin edilməsi mülki iş üzrə çıxarılacaq məhkəmə qətnaməsinin gələcəkdə icrasını təmin etmək məqsədilə tətbiq olunan prosessual tədbir olmaqla, üç əsas meyara cavab verməlidir:

- bu tədbirlər, onların tətbiqi üçün əsaslar olduğu halda kifayət qədər qısa zaman ərzində tətbiq edilməlidir;
- bu tədbirlər müvəqqəti xarakter daşımalıdır;
- tətbiq olunan tədbirlər verilmiş iddia tələblərinə mütənasib olmalıdır.

Konstitusiyanın 71-ci maddəsinin II hissəsində mütənasiblik prinsipi "hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır" kimi ifadə olunmuşdur.

Mütənasiblik prinsipinin yaranması roman-german konstitusionalizminin ənənələri ilə əlaqələndirilir.

Əvvəllər, 1950-1960-cı illərdə, mütənasiblik konsepsiyası Avropa İttifaqının Ədalət Məhkəməsi tərəfindən baxılan bir sıra işlərdə öz əksini tapmışdır. Bu konsepsiya Avropa hüququ və praktikası tərəfindən müharibədən sonrakı Almaniyanın konstitusiya hüququna əsaslanaraq qəbul olunmuşdur. Prinsip olaraq isə XVIII əsrin sonu - XIX əsrin birinci yarısında Prussiya inzibati hüququnda meydana çıxmışdır.

Ümumi şəkildə Almaniya ictimai hüququnda işlənib hazırlanmış və Avropa hüququnda öz təkamülünü davam etdirən mütənasiblik testi aşağıdakı məsələlərin ardıcıl surətdə həll olunmasını nəzərdə tutur:

1) dövlət orqanlarının fərdi hüquqların (azadlıqların) həyata keçirilməsinə müdaxiləsi yer almışdırmı;

2) bu cür müdaxilə dövlətdaxili qanunla nəzərdə tutulmuşdurmu;

3) müdaxilənin məqsədi legitimdirmi (qanunidirmi);

4) arzuolunan məqsədə bu cür müdaxilə vasitəsinin tətbiqi ilə nail olmaq olarmı, başqa sözlə desək, istifadə olunan vasitə məqsədə nail olmaq üçün yararlıdırmı;

5) hansısa başqa, eyni dərəcədə yararlı, lakin daha az yorucu vasitə varmı, başqa sözlə, istifadə olunan vasitə legitim məqsədə nail olmaq üçün zəruridirmi;

6) istifadə olunan vasitə uyğundurmu (dar mənada proporsionaldırmı).

Ən ümumi mənada isə mütənasiblik prinsipi mütləq olaraq özündə 3 əsas elementi nəzərdə tutur:

- bu prinsip insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması məsələlərini tənzimləyir;
- hüquq ancaq qanunla məhdudlaşdırıla bilər;
- məqsədə çatma vasitəsi kimi hüququn məhdudlaşdırılma dərəcəsi həmin məqsədə uyğun olmalı və hədsiz olmamalıdır.

Mütənasiblik prinsipi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra - Avropa Məhkəməsi) təcrübəsində möhkəmlənmiş və sonuncu tərəfindən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya ilə nəzərdə tutulmuş hüquq və azadlıqların məhdudlaşdırılmasının mümkünlüyünün müəyyən edilməsi üçün aktiv şəkildə istifadə olunur.

Avropa Məhkəməsi "Hakansson və Sturesson İsveçə qarşı" iş üzrə 1990-cı il 21 fevral tarixli Qərarında qeyd etmişdir ki, Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi tətbiq olunan vasitələrlə qarşıya qoyulan məqsədin ağlabatan mütənasibliyini tələb edir. Əgər müvafiq şəxs xüsusi və həddən artıq məhrumiyyətə məruz qalıbsa, mütənasibliyin müəyyən edilməsindən söhbət gedə bilməz.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən mütənasiblik prinsipindən aktiv istifadə edilərək bu prinsipin anlayışına və mahiyyətinə yüksək diqqət yetirilir. Plenumun qərarlarında mütənasiblik prinsipinin mahiyyəti Konstitusiyanın və qanunların bilavasitə şərhi, həmçinin Avropa Məhkəməsinin qərarlarında ifadə olunan hüquq tətbiqetmə təcrübəsi əsasında açıqlanır.

Konstitusiya Məhkəməsi Plenumunun Klark Qordon Morrisin şikayəti üzrə 2017-ci il 26 may tarixli Qərarında mütənasiblik prinsipinə kifayət qədər aydınlıq gətirilmiş, məhdudiyyətlər tətbiq edilərkən nəzərə alınmalı olan qanunvericilik normaları açıqlanmış və belə məhdudiyyətlərin tətbiq edilməsi zamanı mütənasiblik, qanuni məqsədə uyğunluq prinsiplərinə riayət edilməsinin vacibliyi vurğulanmışdır. Qərarda göstərilmişdir ki, mütənasiblik prinsipinə riayət olunmasını təmin etmək üçün məhkəmə qanunvericiliyə uyğun olaraq işə baxarkən, hər bir konkret halda məhdudiyyətin müəyyən olunmasının əsaslarını, borclunun buna qarşı etirazlarını öz daxili inamına görə qiymətləndirməli, işi hərtərəfli, tam və obyektiv araşdırmalı, məsələ ilə bağlı öz nəticələrini müvafiq məhkəmə aktında əsaslandırmalıdır.

Göstərilən prinsipin əhəmiyyəti onun yalnız konstitusiya nəzarəti orqanı tərəfindən deyil, ümumi yurisdiksiya məhkəmələri tərəfindən daha geniş istifadəsi ilə əlaqədar artmışdır. Bu tendensiya qərarın Konstitusiya və qanunun normaları ilə əsaslandırılması zamanı məhkəmələrin eyni zamanda beynəlxalq hüququn qəbul olunmuş prinsip və normalarına, Konstitusiya Məhkəməsinin hüquqi mövqelərinə istinad etməsində, bununla da tətbiq edilən hüquq normalarının vahid hüquq məkanına inteqrasiya etməsində ifadə olunur.

Qüvvədə olan Mülki Prosessual Məcəllənin şübhəsiz üstünlüklərindən biri məhz iddianı təmin etmə tədbirlərinin iddiaçı tərəfindən irəli sürülmüş tələbə mütənasibliyi prinsipinin tətbiq edilməsidir.

Mülki Prosessual Məcəllənin 158-ci maddəsində nəzərdə tutulmuş hansı təmin etmə tədbirlərinin iddiaçı tərəfindən irəli sürülmüş tələbə mütənasib olması göstərilmir. Lakin həmin maddənin mənasından aydın olur ki, məhkəmə, təmin etmə tədbirlərinin tətbiq edilməsinə dair ərizələrə baxarkən ərizəçinin tələb etdiyi konkret təmin etmə tədbirinin irəli sürülmüş iddia tələbi ilə nə qədər bağlı olduğunu, ona müvafiq olub-olmadığını araşdırmalıdır. Buna görə məhkəmə, irəli sürülmüş iddia tələbindən və həmin iddia ilə bağlı mümkün məhkəmə qərarından çıxış edərək əmin olmalıdır ki, iddia tələbinin təmin olunması halında Mülki Prosessual Məcəllənin 158-ci maddəsində göstərilən tədbirlərdən hər hansı birinin qəbul olunmaması məhkəmə qərarının icrasını çətinləşdirə və yaxud qeyri-mümkün edə bilər.

Təmin etmə tədbirlərinin iddiaçı tərəfindən irəli sürülmüş əsas tələbə mütənasibliyi prinsipinin mahiyyəti bundan ibarətdir ki, hakim cavabdehin əmlakına iddia məbləğindən çox olmayan ölçüdə həbs qoya və yaxud cavabdehə və ya digər şəxslərə müstəsna olaraq irəli sürülmüş tələb həddində müəyyən hərəkətləri icra etməyi qadağan edə bilər.

Qüvvədə olan Mülki Prosessual Məcəllənin 158-ci maddəsində nəzərdə tutulmuş iddianı təmin etmə tədbirlərindən başqa məhkəmə iddianın təmin olunması üçün digər tədbirləri də görə bilər.

Digər tədbir kimi əmlakın həbsdən azad edilməsi barədə iddia irəli sürülməsi halında həbs edilmiş əmlakın satışının dayandırılması, cavabdehin üzərinə əmlakın qorunub saxlanılması ilə əlaqədar müəyyən vəzifələrin qoyulması və s. göstərmək olar.

Digər tədbirlər də, hər bir halda Mülki

Prosessual Məcəllənin 157-ci maddəsində göstərilmiş məqsədlərə uyğun olmalıdır. Bu maddədə nəzərdə tutulmamış məqsədlər üçün məhkəmə tərəfindən iddianı təmin etmə tədbirlərinin qəbul olunmasına yol verilmir.

Qanunverici cavabdehə və başqa şəxslərə müəyyən hərəkətləri etməyi qadağan etmək növündə iddianı təmin etmə tədbirlərinin görülməsi zamanı (Mülki Prosessual Məcəllənin 158.1.2 və 158.1.3-cü maddələri) həmin qadağanı pozan fiziki və hüquqi şəxslərdən dövlətin xeyrinə cərimənin tutulmasını nəzərdə tutmuşdur (Mülki Prosessual Məcəllənin 158.5.1 və 158.5.2-ci maddələri).

Bundan əlavə, iddiaçı iddianın təmin edilməsi barədə qərardadın icra edilməməsi nəticəsində dəymiş ziyanın ödənilməsini həmin şəxslərdən məhkəmə qaydasında tələb etməyə haqlıdır (Mülki Prosessual Məcəllənin 158.6-cı maddəsi).

Mülki Prosessual Məcəllə təmin etmə tədbirlərinin qəbul olunması haqqında qərardadın yerinə yetirilməməsi nəticəsində vurulmuş ziyan anlayışını açıqlamır.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu halda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21.2-ci maddəsinin norması istifadə oluna bilər, çünki bu maddədə nəzərdə tutulmuş qaydada zərərin əvəzinin ödənilməsi mülki hüquqların universal müdafiə üsuludur. Həmin maddəyə görə zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd edilməsini zəruri hesab edir:

- Konstitusiyanın 127-ci maddəsinin II hissəsinin, Mülki Prosessual Məcəllənin 157 və 158-ci maddələrinin tələblərinə uyğun olaraq məhkəmələr işdə iştirak edən şəxs tərəfindən ərizədə iddianı təmin etmə tədbirlərinin tətbiq edilməsinin kifayət qədər əsaslandırılmasına xüsusi diqqət yetirməli, ərizədə irəli sürülən dəlillərin əsaslı olub-olmamasına hərtərəfli qiymət verməli, iddia tələbi ilə bu tədbirlər arasında əlaqənin mövcud olmasını yoxlamalı, tətbiq olunan tədbirin irəli sürülmüş tələbə mütənasib olmasını və işdə iştirak edən bütün şəxslərin qanuni mənafelərini təmin etməklə əsaslandırılmış məhkəmə aktı qəbul etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin II hissəsinin, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 158-ci maddələrinin tələblərinə uyğun olaraq məhkəmələr işdə iştirak edən şəxs tərəfindən ərizədə iddianı təmin etmə tədbirlərinin tətbiq edilməsinin kifayət qədər əsaslandırılmasına xüsusi diqqət yetirməli, ərizədə irəli sürülən dəlillərin əsaslı olub-olmamasına hərtərəfli qiymət verməli, iddia tələbi ilə bu tədbirlər arasında əlaqənin mövcud olmasını yoxlamalı, tətbiq olunan tədbirin irəli sürülmüş tələbə mütənasib olmasını və işdə iştirak edən bütün şəxslərin qanuni mənafelərini təmin etməklə əsaslandırılmış məhkəmə aktı qəbul etməlidir.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 14 mart 2018-ci il*